________*Milli Kitabxana*________

**ƏSGƏR QƏDİMOV**

# ƏLİ MƏHBUS VƏ ƏSƏRLƏRİ

Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 14 yanvar 2009-cu il tarixi qərarı ilə (protokol №5) çap olunur

**«Nurlan»**
**Bakı-2009**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

________Milli Kitabxana________

Elmi redaktoru: **Kamran Əliyev**
*filologiya elmləri doktoru, professor*

Rəyçi: **Hüseyn Həşimli**
*əməkdar elm xadimi,*
*filologiya elmləri namizədi, dosent.*

**Əsgər Qədimov. Əli Məhbus və əsərləri. Bakı, «Nurlan » 2009. – 120 səh.**

Naxçıvan Dövlət Universitetinin “Azərbaycan ədəbiyyatı” kafedrsının müdiri filologiya elmləri doktoru Əsgər Nadir oğlu Qədimovun bu kitabında Cəlil Məmmədquluzadənin dayısı, görkəmli mollanəsrəddinçi şair Əli Məhbus (Əlişdan) Babayevin həyat və yaradıcılığı tam genişliyi ilə təhlil olunub qiymətləndirilmiş, şairin ədəbi irsi ilk dəfə olaraq oxuculara çatdırılmışdır.

$\frac{4702000000}{N-098-2009}$ ***Qrifli nəşr***

**© «Nurlan», 2009**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BƏLƏDÇİ

1.»Sərvəti bircə kağız-qələmdan» olan şair ____________________ səh. 4
2.Mollanəsrəddinçi şairimiz Əli Məhbus______________________ səh. 8
3.Əsərləri______________________________________________ səh. 59
4.Məktublar_____________________________________________səh.113

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏRVƏTİ BİRCƏ KAĞIZ-QƏLƏMDAN» OLAN ŞAİR

Qədim tarixə malik Naxçıvan ədəbi mühiti zaman-zaman Azərbaycan ədəbiyyatının inkişafına ciddi töhfələr vermiş, bu proses XIX-XX yüzilliklərdə yeni bir vüsət almışdır. Qönçəbəyim, Heyran xanım, M.T.Sidqi, C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmküsar, E.Sultanov, H.İbrahimov, M.Araz və başqaları kimi məhşur ədəbi simalar söz sənətimizin yüksəlişində, ideya-bədii təkamülündə mühüm rol oynamışlar. Belə tanınmış qələm sahiblərinin ömür və sənət yolu haqqında çoxlu araşdırmalar aparılmış, qiymətli tədqiqatlar ortaya çıxmışdır. Lakin indiyədək əhatəli öyrənilməyən, əsərləri müasir oxuculara lazımınca çatdırılmayan sənətkarlar da var. Onlardan biri də ustad Mirzə Cəlilin dayısı, ötən əsrin ilk onilliklərində lirik və satirik şeirləri ilə dövrünün ruhunu, qayəsini, müasirlərini düşündürən sosial-mənəvi problemləri bədii sənət dili ilə canlandırmağa çalışan Əli Məhbusdur. Bu mənada Naxçıvan Dövlət Universitetinin «Azərbaycan ədəbiyyatı» kafedrasının müdiri, filologiya elmləri doktoru Əsgər Qədimovun oxuculara ünvanlanan «Əli Məhbus və əsərləri» adlı kitabı özünəməxsus əhəmiyyət daşıyır. Qeyd edək ki, Ə.Qədimov Naxçıvan ədəbi mühitinin tanınmış tədqiqatçılarındandır. Onun indiyədək XIX əsr Ordubad ədəbi mühitinə, Fəqir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ordubadi, Qüdsi Vənəndi, Hüseyn Nadim Naxçıvani, Salik Ordubadi kimi şairlərin yaradıcılığının tədqiqinə həsr olunmuş kitabları və məqalələri maraqla qarşılanmışdır. Adı çəkilən sənətkarların ədəbi irsinin çap olunaraq müasir oxuculara çatdırılması istiqamətində də Əsgər müəllimin məhsuldar əməyini xatırlamaq yerinə düşər. Beləliklə, Əli Məhbus haqqında kitab alimin elmi axtarışlarının əsas yönü ilə səsləşən bir araşdırma kimi ortaya çıxmışdır. Kitabın özünəməxsusluğu ondadır ki, müəllif əvvəlcə Ə.Məhbusun ömür və sənət yolunu tədqiqat predmetinə çevirir, şairin müfəssəl yaradıcılıq portretini yaradır, sonra isə onun əsərlərindən seçilmiş nümunələri oxucuya təqdim edir. Qeyd edək ki, indiyədək Ə.Məhbus haqqında ayrı-ayrı ədəbiyyatşünaslar söz açmış, dəyərli fikirlər söyləmişlər, xüsusən prof. Ə.Şərifin, akad. İ.Ə.Həbibbəylinin tədqiqatlarından müvafiq məqamları xatırlatmaq gərəkdir. Bununla yanaşı, deməliyik ki, Ə.Qədimov Əli Məhbusun həyat və yaradıcılıq yoluna kompleks halda nəzər salmış, bir sıra məsələləri dəqiqləşdirmiş, aydınlaşdırmış, şairin məktub, xatirə və şeirlərini əhatəli təhlilə cəlb etmişdir. Razılıq doğuran haldır ki, Ə.Qədimov şairin məşəqqətli ömür yolunu diqqət mərkəzinə çəkərkən ayrı-ayrı tədqiqatçıların qeydlərinə istinad etməklə yanaşı, sənətkarın avtobioqrafik şeirlərinə, məktub və xatirələrinə də mötəbər, ilkin mənbə kimi üz tutmuş, nəticədə onun tərcümeyi-halını dolğun şəkildə işıqlandıra bilmişdir. Ə.Məhbusun şeirlərinin təhlili prosesində

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də tarixilik və dəqiqlik prinsiplərinə əməl olunması nəzərdən qaçmır. Belə ki, zəmanənin və cəmiyyətin ayrı-ayrı problemlərinə, sosial-siyasi məsələlərə sənətkar münasibətinin ifadəsi kimi yaranmış şeirləri təhlil predmetinə çevirərkən tədqiqatçı həmin bədii nümunələri tarixilik və müasirlik prizmasından dəyərləndirir. Rus çarizminin XX əsrin əvvəllərində yürütdüyü mənfur siyasətə, bədnam ermənilərin azərbaycanlılara qarşı törətdiyi fitnəkar əməllərə, milli qırğına, bu hadisələrdə rus hakim dairələrinin ermənipərəst mövqeyinə, oynadığı qızışdırıcı rola həsr olunan şeirlərin təhlili məhz bu yöndə aparılmışdır. Ə.Məhbusun yuxarıda qeyd olunan, eləcə də digər mövzularda (qadın azadlığı, fanatizmin tənqidi və s.) qələmə aldığı satirik şeirlərini haqlı olaraq «Molla Nəsrəddin» ədəbi məktəbi, Sabir ənənələri ilə bağlayan tədqiqatçı şairin satiralarının tənqid hədəfləri, mövzu-ideya xüsusiyyətləri, sənətkarlıq məziyyətləri barədə inandırıcı elmi qənaətlərə gəlmişdir. Ə.Məhbusun qələmindən ciddi məzmunlu lirik şeirlərin çıxdığını da vurğulayan Ə.Qədimov müvafiq nümunələri, o cümlədən şairin ürək yanğısından yoğrulmuş «Vətən» rədifli şeirini də əhatəli təhlilə cəlb etmişdir.

Ə.Məhbusun 1918-20-ci illərdə, eləcə də sovet dövründə qələmə aldığı şeirlərdən günümüzə çatan nümunələr də müvafiq tərzdə dəyərləndirilmişdir. Xüsusən onun yeni latın əlifbası barədəki şeirinin təhlili maraq doğurur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlbəttə,  bu günün baxış bucağından yanaşdıqda Ə.Məhbusun şeirlərində bəzi məhdud cəhətlərin varlığı da təbiidir və təhlil prosesində də onlarla obyektiv münasibət bildirilmiş, yazıldıqları dövrün kontektstində yanaşılmışdır. Kitabın ikinci bölməsində isə Əli Məhbusun əsərlərindən nümunələr toplanmışdır. Onun xatirələri, məktubları və şeirləri ilə tanışlıq şairin yaradıcılığının təhlilindən alınan təəssüratın tamamlanmasına xidmət göstərir.

Bütövlükdə filologiya elmləri doktoru Əsgər Qədimovun «Əli Məhbus  və əsərləri» kitabı şairin ömür və sənət yolu barədə dolğun təsəvvür yaradan faydalı kitabdır. Əsgər müəllimə yeni uğurlar arzulayırıq.

**HÜSEYN  HƏŞİMLİ:**
***Əməkdar elm xadimi***
***22 dekabr 2008-ci il***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MOLLANƏSRƏDDİNÇİ ŞAİRİMİZ ƏLİ MƏHBUS

«Molla Nəsrəddin» ədəbi məktəbinə mənsub olan, tədqiq olunmamış satirik şairlərdən biri də «Məhbus» təxəllüsü ilə yazan Əli Babayevdir. Bu ədəbi şəxsiyyət haqqında bu vaxtadək əsaslı elmi araşdırmalar aparılmamış, yalnız mərhum professor Əziz Şərif özünün «Tapıntılar» adlı kitabında şairin həyatı və yaradıcılığı haqqında kiçik bir məqalə dərc etdirmişdir.[1] Akademik İsa Həbibbəyli isə Ə.Məhbusun Mirzə Cəlilə və ailəsinə yazdığı məktubları çap etdirərək ədəbi ictimaiyyətə çatdırmışdır. Əziz Şərifin məqaləsindən və araşdırmalardan məlum olur ki, Əli Məhbus Babayev böyük demokrat Cəlil Məmmədquluzadənin doğmaca dayısıdır.

C.Məmmədquluzadənin AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan arxivində və S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Əli Məhbusun iyirmidən yuxarı şeiri, Naxçıvanın 1868-1928-ci illər tarixinə aid yarımçıq qalmış qeydləri və tərcümeyi-halı,[2] C.Məmmədquluzadənin dayısına yazdığı 11 may

---

[1] Bax: Əziz Şərif. Tapıntılar. Bakı, «Yazıçı», 1987, s.29.

[2] Бах: Алишдан Бабайев. Автобиография и стихи. ГАЛИ им. С.Мумтаза Азербайджанской Республики. Фонд 255, орис 4. ед.хр. 76.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1930-cu il tarixli «Əzizim Əlişdan dayı»[1] və «Möhtərəm dayı»[2] başlıqlı iki məktubu, Əli Babayevin isə C.Məmmədquluzadəyə yazdığı «Bacı oğlu»[3] başlıqlı bir məktubu vardır. Bundan başqa, Əli Babayevin Mirzə Cəlilin ailəsinə və qızına yazdığı daha bir məktubu da günümüzə çatmışdır. 1932-ci ilin 8 yanvarında öz bacısı oğlu Mirzə Cəlilin vəfatı münasibətilə qələmə aldığı «Mənim nuri-çeşmlərim Midhət paşa və Ənvər paşa və Həmidə xanım və Minəvvər xanım» başlıqlı bu məktubunda Əli Babayev bacısı oğlu Mirzə Cəlilin dəfninə xəstə olduğu üçün gələ bilmədiyini bildirir və öz kədərini ifadə edərək yazırdı: «Bacım yadigarı Həmidə xanım! Allah Midhət paşanı və Ənvər paşanı Mirzə Cəlilin yerində bərqərar eləsin. Mənim Cəlildən əlim üzüldü...

Anam-bacım Həmidə xanım! Sizlər məni yaddan çıxarmayın. Çünki sizdən

savayı mənim bir kimsəm yoxdur. Bütün qohum-əqrəbadan nişanə qalan bir Mirzə Cəlil idi. Onu da fələk əlimdən aldı. İndi ümidim qalıb bircə sizlərə...»[4]

Ə.Babayev eyni məzmunlu məktubla M.Cəlilin oğlu Ənvər paşaya da öz kədərini ifadə etmişdir.

---

[1] Bax: Mirzə Cəlil və Məmmədquluzadələr: Məktublaşma (Tərtib edəni akad. İ.Həbibbəyli). «Çinar–çap» nəşriyyatı, Bakı, 2003, səh. 88 – 89

[2] Yenə orada, səh.141

[3] Yenə orada, səh. 137 – 138

[4] Bax: Mirzə Cəlil və Məmmədquluzadələr: məktublaşma. «Çinar-çap» nəşriyyatı, Bakı, 2003. səh. 165-166

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu məktublar Əli Babayevin həm həyatının ağırlığını, həm də Mirzə Cəlilə, onun ailəsinə olan istək və sevgisini ifadə edir.

Əli Məhbus haqqındakı sənədlərdən və onun öz həyatı haqqında yazdığı bir tərcümeyi-hal şeirindən məlum olur ki, şair heç bir yerdə təhsil görməmiş, yalnız öz mütaliəsi əsasında yazıb-oxumaq öyrənmiş, fars və ərəb dillərinə də azacıq bələd olmuşdur. Prof. Əziz Şərif öz tədqiqatlarında Əli Məhbusun anadan olma tarixi haqqında dəqiq məlumat verməsə də, onun öz bacısı oğlu Cəlil Məmmədquluzadədən «beş-altı yaş böyük» olduğunu və «Cəlil Məmmədquluzadədən bir il sonra, 1933-cü ildə vəfat» etdiyini yazır. Əli Məhbusun 1860-cı ildə anadan olmasına dair fikir də mövcuddur. Lakin bu rəqəmi bir qədər dəqiqləşdirməyə ehtiyac vardır. Əli Məhbus özünün 1919-cu ildə yazdığı «Ey vətən» rədifli şeirində vətəninə xitabən belə bir beyt işlətmişdir:

Ayrılım səndən necə, yetmiş beş il ömr etmişəm,
Öldürər getsəm bəni çöllərdə hicran, ey Vətən.

Bu beytdən aydın olur ki, 1919-cu ildə Əli Məhbusun 75 yaşı olmuşdur. Bu hesabla şairin anadan olma tarixi dəqiq olaraq 1844-cü ilə düşür və bacısı oğlu Mirzə Cəlildən 25 yaş böyük olur. Şairin vəfat tarixi isə prof. Əziz Şərifin məqaləsində [1] və Əli Məhbusun öz qızı mərhum Sənubər xanımın xatirəsində 1933-cü il kimi göstərilir.

---

[1] Bax: Əziz Şərif. Tapıntılar. «Yazıçı», Bakı, 1987, s. 29

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənubər xanım Hacıyeva vaxtı ilə atası Əli Məhbus haqqında xatirəsində deyirdi: «...Atamın çoxlu şeirləri var idi. Anam onları qoruyub saxlaya bilmədi. Heyiflər olsun. Bibimin oğlu Cəlil Məmmədquluzadə atamdan bir il əvvəl, 1932-ci ildə vəfat etdi. Atam ağır xəstə idi. Yasına gedə bilmədi. Yadıma gəlir ki, bacısı oğlunun ölümünə bir şeir də yazmışdı. Sonralar həmin şeiri də itirdik. Saxlaya bilmədik atamın şeirlərini. Ağır illər idi. Bir də repressiyadan necə çıxmaq olardı? Yəqin ki, atam qalsaydı, o da 37- ci ilin qurbanı olmuşdu.

Mirzə Cəlil atamı çox istəyirdi, şeirlərini əzbər bilirdi. Mən Bakıda oxuyanda tez-tez bibim oğlugilə gedərdim. Mirzə Cəlil həmişə atamın şeirlərindən söhbət açardı və deyərdi ki, dayım əsl şairdir»[1].

Bu faktlar Əli Məhbusun 1844-cü ildə doğulduğunu və 1933-cü ildə vəfat etdiyini təsdiq edir.

Tədqiqat göstərir ki, Əli Məhbus maddi çətinlik şəraitində yaşamış, iqtisadi cəhətdən ağır güzəran keçirmişdir. Bu haqda şair özünün tərcümeyi-hal şeirində məlumat verərək yazırdı:

Mən yazdım dərdimi çün aşikar,
Ta qala məndən sora bir yadigar.
Tərcümeyi-halıma baxsaz əgər,
Onda bilərsiz ki, nə qəzavü qədər
Başıma gəlmiş mənim, ey fə’lələr.

---

[1] Cəlil Vəzirov. Mirzə Cəlilin dayısı. «Ədəbiyyat və incəsənət» qəzeti, 2 noyabr 1990, №43, səh .2

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yadə salarsız məni siz hər nə var,
Ta qala məndən sora bir yadigar.

On yaşında ikən şairin atası ölmüş, ailənin bütün ağırlığı balaca Əlinin üzərinə düşmüşdür. İki qardaşı ilə atadan yetim qalan Əli anasının himayəsində yoxsulluq içərisində yaşamışdır. Həyatının bu kədərli çağlarını xatırlayan Əli Məhbus yazırdı:

On yaşım olmuşdu mənim çün təmam,
Gətdi qəza çün belə, öldü atam.
Qaldı iki qardaşınan bir anam,
Olmadı hərgiz bizə bir qəmküsar,
Ta qala məndən sizə bir yadigar.

Öldü atam, çünki mən oldum yetim,
Qaldı ürəkdə o zaman həsrətim,
Olmadı çün elmə gedəm sərvətim,
Oldu günüm qarə mənim hər nə var,
Ta qala məndən sora bir yadigar.

Atasının vəfatından sonra Əli Məhbus yoxsulluq içərisində yaşadığı üçün təhsil ala bilməmişdir. Şair həmin şeirində buna işarə edərək yazırdı:

Məktəbə getmək də idi niyyətim,
Çox var idi elmə mənim rəğbətim.
Olmadı axır, nə edim, fürsətim,
Axırı oldum belə dərdə ducar,
Ta qala məndən sizə bir yadigar.

Hələ atasının sağlığında az yaşlı Əli ağır güzəran keçirən ailələrinə maddi cəhətdən kömək göstərmək məqsədilə fəhləlik edər, bağ sahiblərinin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əkin sahələrinin çayırını təmizləməklə evlərinə çörək pulu gətirərdi:

Yeddi qəpik gündə alıb işlədim,
Bağda gedib çayırçılıq eylədim.
Axşam alıb mən o pulu xərclədim,
Gəldim, atam gördüm olub biqərar,
Ta qala məndən sizə bir yadigar.

Fə'ləlik oldu o zaman sənətim,
Oldu məaşım mənə düz zəhmətim.
Gündə bir əbbası olub sərvətim,
Qalmadım işdən genə mən yaz-bahar,
Ta qala məndən sizə bir yadigar.

Atasının vəfatından sonra az yaşlı Əli evlərini dolandırmaq üçün usta yanında fəhləlik edib bənnalıq sənətini öyrənir və az müddət ərzində bənnalıqda şöhrət qazanaraq ailənin maddi güzəranını bu yolla azacıq düzəldir:

Bir neçə il də elədim bənnalıq,
Sənətim oldu o zaman ustalıq.
Oldu divar üstə işim lovğalıq,
Onda adım oldu mənim ustakar,
Ta qala məndən sora bir yadigar.

Prof. Əziz Şərifin yazdığına görə, Əli Məhbus bənnalıq etdiyi zaman işləyərkən sabun tiyanından gözlərinə soda atılmış və göz ağrısından əziyyət çəkən Əli daha bənnalıq sənətində işləyə bilməmişdir. Bu haqda Əli Məhbusun özü də şeirində məlumat vermişdir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cümlə məsəldir sizə bu sözlərim,
Düşdü zora, ağrıdı çox gözlərim.
Olmadı ta onda mənim müştərim,
Evdə oturdum o zaman boş-bekar,
Ta qala məndən sizə bir yadigar.

Gözlərinin ağrımasına görə Əli Məhbusun bənnalıqdan əl çəkib boş- bekar qalması bu dövrdə onun çox acınacaqlı həyat tərzi keçirməsinə səbəb olur. Əyninə paltar, ayağına başmaq tapa bilməyən şair həyatının həmin acınacaqlı və ağır çağları haqqında da yazırdı:

Müxtəsər, etdim nə qədər mən təlaş,
Bircə doyunca yemədim ağ lavaş.
Hər işə getdimsə, işim oldu yaş,
Görmədim heç cibdə ola bir dinar,
Ta qala məndən sizə bir yadigar.
Hər işə getdim, işim oldu fırıx,

Görmədim əynimdə təzə arxalıx.
Yamaxlı başmaq, papağım cıp-cırıx,
Eylədi başmaqlar ayağım qabar,
Ta qala məndən sizə bir yadigar.

Bu illərdə Naxçıvan şəhərində bağ-bostan sahiblərinin torpağında çayır təmizləməklə güzəran keçirən Əli Məhbus bağçılıq və bostançılıq etmək qərarına gəlir və Naxçıvan əsilzadələrindən olan Hüseynqulu bəy Kəngərlinin torpaq sahəsini icarəyə götürüb bağçılıq və bostançılıqla məşğul olur. Lakin tərcümeyi- hal şeirindən məlum olur ki, icarəyə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

götürdüyü əkin yerində badımcan, bibər və pazı kimi ərzaq məhsulları yetişdirib satan Əli Məhbusun bu peşəsi də ona əsaslı qazanc gətirməmişdir. Odur ki, Əli Məhbus bu peşəsinin də ona xoş güzəran vermədiyindən gileylənərək yazırdı:

Mən elədim axırı bostançılıq,
Onda işim oldu mənim lap fırıq.
Sənətim oldu bu badımcançılıq,
Kələm, pazı, çoxluca əkdim bibar,
Ta qala məndən sizə bir yadigar.

Bu işdən əməlli gəlir götürməyən Əli Məhbus bostan-tərəvəzçiliyi meyvəçiliklə əvəz edir. O, bağında müxtəlif növ meyvə ağacları yetişdirir, həm onların meyvəsini, həm də tingələrini satmaqla dolanırdı. Bir müddətdən sonra Əli Məhbusun yetişdirdiyi müxtəlif növ meyvə ağaclarının şöhrəti hər yerə yayılır. Qafqazın hər yerindən onun bağına gəlir və meyvə tingələri alırlar. Əziz Şərifin yazdığına görə, Əli Məhbus 1910-cu ildə C.Məmmədquluzadənin xahişi ilə Kəhrizliyə Həmidə xanıma da müxtəlif növ ərik, alma, armud və badam tingələri göndərmişdir. Lakin bir müddətdən sonra Hüseynqulu bəy Kəngərli özünün torpaq sahəsini satmış və Əli Məhbusun artıq bu peşəsi də əlindən çıxmışdır. Bir müddət naxçıvanlı Tahir Tahirovun torpağını icarəyə götürüb bağçılıq edən Əli Məhbus sonra bağçılıqdan əl çəkmiş və Naxçıvanda dövlət məmurlarının evində xidmətçilik etmək məcburiyyətində qalmışdır. Lakin bu işdə də Əli Məhbusun güzəranı ağır keçmiş və özünün yazdığına görə məşəqqətli həyat keçirmişdir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olmadı elmim, belə oldum zəlil,
Fə’ləlik etdi məni axır əlil.
İndi gedib gör kimə düşdüm dəxil,
Zülm eləyir bax, mənə o nabəkar,
Ta qala məndən sizə bir yadigar.

Bu şeirdən başqa, Əli Məhbusun özünün uşaqlıq həyatı haqqında da xatirələri və tərcümeyi-hal qeydləri vardır. Bu qeydlərdən həm onun tərcümeyi- halı, həm də hakim təbəqələrə münasibəti haqqında məlumat əldə edirik. Şair özünün uşaqlıq həyatı haqqındakı xatirəsində yazırdı: «...Atamın-anamın oğul övladı olmadığına görə bəni çox əziz tutardılar. O səbəbə bəni yay zamanları yaylağa göndərərdilər. Mənim anam kırnalı [1] qızı idi. Kırnada bənim bir qarı nənəm var idi. O bəni özü ilə bərabər hər yıl yaylağa aparardı. O zaman bənim səkkiz yaşım var idi. Bir gün yenə qarı nənəm ilə yaylağa gedirdik. Ləkətağ kəndindən yuxarı bir yaylaq var, o yaylağın adına Kula dərəsi deyirlər. Biz o dərəyə yetişdikdə bən gördüm bir uca təpənin yamacında bir qoca kişi və bir qarı övrət, yanlarında üç nəfər qız ilə, əllərində kərkilər təpənin döşünü qazırlar. Bən nənəmdən soruşdum: Nənə, o adamlar o təpəyi nə üçün qazırlar? Nənəm bənə belə cavab verdi və dedi: Bala, onlar oranı qazırlar, arpa əksinlər. Bən dedim: Nənə, ağalar bu biçarələrdən də bəhrə

[1] Kırna – Naxçıvan MR Culfa rayonunda kəndidir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

alacaqlar? Nənəm dedi: Bəs necə, bala. Bu dağlar, bu təpələr həp ağalarındı. Bən nənəmdən bu sözü eşidəndə dedim: Ay nənə, məgər bu ağaların heç insafları yoxdur? Bu biçarələr bu qədər zəhmət ilə arpa əkirlər, ağalar bunların əlindən alırlar? Məgər ağalar bu dağları, bu dərələri özləri qayırıblar? Nənəm dedi: Yox bala, bu dağlar, bu təpələr, bu kənd, bunlara padşahlar veriblər. Bən dedim: Nə üçün padşahlar bu kəndləri, bu dağları həp bu ağalara veriblər? Məgər ağalar padşahların rəyətləridi? Bu padşahların rəyətləri degillər».[1]

Əli Məhbus özünün qələmə aldığı qısa tərcümeyi-halında Naxçıvanın varlı məmurlarının evində xidmət etməsi, özünün elmə, maarifə olan rəğbəti, bağbançılıqla güzəran keçirməsi haqqında da məlumat verir və yazırdı: «Qışda getdim üç ayı iki manata bir ağaya qulluq elədim. O ağa bir elmli adam idi. Gündüz gedər idi divanxanədə qulluq eylərdi, gecələr gəlib evdə isdolun üstə oturub yazı yazar idi. Mən də ayaq (üstdə) ağanın qabağında durardım. Bir gecə mən cəsarət edib ağama dedim:

Ağa, bən neçə yil sənə qulluq eləyim ki, mənə də oxumaq, yazmaq ögrədəsən?

Ağam dönüb mənə belə cavab verdi, dedi:

-A gədə, bən molla degiləm, sənə dərs verəm. Sən get öz nökərçiliyinə.

---

[1] Статья о Нахичеванском поэте Алищдан Бабаеве. Азярбайжан Respublikası, S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 255, is 2, s.v.12, səh.5a.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bən naümid olub çıxdım, eşikdə ağladım».[1]

Bu kədərli xatirədən sonra Əli Məhbus oxuculara xitab edərək onlara övladlarının təlim və tərbiyəsi ilə ciddi məşğul olmağı tövsiyə edir və yazırdı: «Qarean, təcrübə hasil eləyin, uşaqlarınızı elmə göndərin. Elmsiz insan bənzər barsız ağaca. Əgər bənim elmim olsa idi, bən dünyadə çox yaxşı işlər görərdim və yaxşı ixtiralar edərdim. Çünki bən özümdə çox böyük qüvvələr gördüm. Əvvəl budur ki, bən elm təhsil eləməmişəm. İgirmi beş yaşım vardı, adımı yaza bilməz idim. Öz-özümə müəllim olub oxumaq, yazmaq örgənmişəm və elmsiz ola-ola bir az da şairlik edib zəmanəyə dair bir parə şeirlər də demişəm və əkinçilikdə mütəxəssis olmuşam və bağça-bağlıqda çox böyük təcrübələr hasil eləmişəm. Əmma nə fayda. Elmsizlik bəni daldalarda qoyub. Səd ah!».

Bu faktlar təsdiq edir ki, Əli Məhbus təhsil görməsə də, elmə və maarifə böyük rəğbət bəsləmiş, dövrünün ictimai ziddiyyətlərini duymuş və özünün şeir yaradıcılığında bu ziddiyyətləri qələmə alıb qiymətləndirə bilmişdir.

Şairin əldə olan şeirləri təsdiq edir ki, Əli Məhbus o zaman Naxçıvanda mollanəsrəddinçilərin ədəbi-ictimai mövqeyində dayanmış, öz bacısı oğlu C.Məmmədquluzadənin söhbətlərini dinləmiş və «Molla Nəsrəddin» jurnalının təsiri ilə satirik

[1] Статья о Нахичеванском поэте Алищдан Бабаеве. Azərbaycan Respublikası, S.Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi, f. 255, iş 2, s.v.12, səh.5a.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şeirlər yazmışdır. Şairin satirik şeirlərinin əksəriyyətində XX əsrin əvvəllərinin ictimai-siyasi hadisələri, maarif və mədəniyyətin aktual problemləri, ictimai güzəran, 1905-ci ildə baş verən erməni-müsəlman davasının törətdiyi rəzalətlər və s. öz bədii əksini tapmışdır. Bu şeirlərin əksəriyyətində «Molla Nəsrəddin» ədəbi məktəbinin, xüsusilə Mirzə Ələkbər Sabirin, Əliqulu Qəmküsarın və Əli Nəzminin satirik üslubunun güclü təsiri duyulur. Çox maraqlıdır ki, Əli Məhbus yazdığı şeirlərinin əksəriyyətinin tarixi haqqında dəqiq məlumat vermişdir. Bu tarixlər şairin satirik yaradıcılığının, onun dünyagörüşünün inkişafı və formalaşması mərhələlərini müəyyənləşdirməyə imkan verir.

İlk şeirləri göstərir ki, Əli Məhbus cəmiyyət həyatında baş verən ictimai

hadisələrin xalqa zidd mahiyyətini başa düşsə də, bu hadisələrin siyasi səbəblərini dərk edə bilməmiş, bunların tənqidində müsəlmançılıqdan və islam zehniyyətindən irəli gələn didaktik nəsihətçilik mövqeyində dayanmışdır. Hələ 1905-ci il inqilabı ərəfəsində qələmə aldığı şeirlərində cəmiyyət həyatında baş verən ictimai ziddiyyətlərin kökünü, onların başvermə səbəblərini görə bilmədiyi üçün Əli Məhbus ilahiyə müraciət edir, olanların səbəbkarı kimi bir müsəlman olaraq tanrını ittiham edirdi:

Söylə, ilahi, görüm, bircə bu üsyan nədir?
Qavzamısan sən belə söhbəti-iman nədir?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir yaradıbsan əgər Adəmi, Həvanı sən,
Ərməni, gürcü, urus, Serbiya, German nədir?
Adəmi xəlq eylədin, bizlərə olsun ata,
Söylə görək, ay kişi, bəs hələ şeytan nədir?
Adını adil qoyub, zalımı xəlq eylədin,
Bəndələrindən ötür bir belə üdvan nədir?
Sən niyə insanların içrə salırsan fəsad,
Gündə tökürsən yerə bir bu qədər qan nədir?

Bu şeir Əli Məhbusun yaradıcılığında ilk şeirlərdən olsa da, təsdiq edir ki, şairin xalqın tərəqqisinə əngəl olan din xadimlərinə, axund və mollalara münasibəti mənfi olmuşdur. Məhbus bu ilk şeirində də avam camaatı məscidlərə yığıb onlara cənnət və huri-qılman vəd edən şeyx Cəfər kimi din xadimlərini tənqid atəşinə tuturdu:

Orda satırlar belə göz yaşına cənnəti,
Şor su nədir, bax görək, rövzeyi-rizvan nədir?
Ağlayana min nəfər huri verir şeyx Cəfər,
Pullarını nəqd alır, nisyə o qılman nədir?

Lakin Əli Məhbus ictimai ziddiyyətlərin əsas səbəbkarı kimi tanrını ittiham etməsinə baxmayaraq, o da M.Ə.Sabir kimi ilahiyə xitab edərək rəiyyətlə əsilzadələr arasındakı fərqlərdən, Fatma-Tükəzbanlardan söz açırdı:

Onları xəlq etmisən beylə gözəl çox ücüz,
Keçəl Sənəm, Kor Pəri, Pinti Bəyimcan nədir?
Kim baxacaq Zeynəbə, görsə o qılmanları?
Söyləyəcək Kar Səfər: Fatma-Tükəzban nədir?
Hamını bir gözdə sən xəlq eləyibsən əgər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hur və qılman nədir, Qotur Xanımcan nədir?
Hamı əgər birdi, ta, olmuya yoxsul gərək,
Tacirü əyan nədir, bu lütü üryan nədir?...
Bir yaradıbsan bizi sən ki, binadan əgər,
Şah nədi, sultan nədir, fə'ləvü kənkan nədir?
Bəy nədi, bəs xan nədir, dağda o çoban nədir?
Gün qabağında yanan çöldəki dehqan nədir?
Sən yaradıbsan ola şad bu Məhbus əgər,
Oldu bu dünya ona axırı zindan, nədir?

1905-ci il inqilabı M.Ə.Sabirin yaradıcılığında olduğu kimi, Əli Məhbusun da yaradıcılığında və dünyagörüşündə ciddi dönüşə təkan verdi. Milli intibaha səbəb olan bu inqilab Əli Məhbusun yaradıcılığında mühüm dəyişiklik yaradaraq onun satirik yaradıcılığına realist ovqat gətirməklə yanaşı, siyasi baxışlarında da böyük təbəddülat oyatdı. Bu dövrdə Əli Məhbusun poeziyası formalaşaraq milli-realist istiqamət kəsb etdi. Bu mərhələdən başlayaraq Əli Məhbus da M.Ə.Sabir kimi xalqa öz dostu ilə düşmənini tanıtmağa başladı.

1905-ci ildə rus çarizminin mürtəce siyasəti nəticəsində ermənilərlə müsəlmanlar arasında salınan milli qırğın hadisələri baş verən zaman Əli Məhbus da çarın əmri ilə Qafqazda milli qırğın törədən mürtəce qüvvələri M.Ə.Sabir kimi xalqa tanıtdırır, öz satirik qələmi ilə onları ifşa edir, rus çarizminin riyakar siyasətini satiranın dili ilə açıb göstərirdi:

Ata övladına zülm eyləməz, ey zalim, qəddar,
Sən eylədin axır nə üçün bir belə, bədkar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Verdin əlinə hökm qoburnat xəbisin,
Saldın yola, gəldi bura iblis, xətakar.

Şeirdə yerli xanların xalqa xəyanəti, onların çar general-qubernatoru qarşısında yaltaqlığı da satirik tənqid obyektinə çevrilir:

Burda aparıb eylədilər çün ona hörmət,
Evlərdə qonaq saxladılar üç gecə xanlar.
Dördümcü günü çıxdı o, bazari-fəsadə,
Qan tökməyə əmr eylədi ol zalimi-xunxar.
Fitvanı verib, qavzadı üsyanını, qaçdı,
Yeksər qatışıb bir-birinə milləti-biar.
Baxdı sözünə çünki onun cahilü nadan,
Bir vəqt nə gördüm ki, axır sel kimi qanlar.

Şeirdə Qafqazda milli qırğın siyasətini həyata keçirən çar Nikolayın adı çəkilmir. Lakin sonrakı təsvirdən məlum olur ki, şairin şeirdəki əsas tənqid hədəfi rus çar hökumətinin başçısıdır. Çünki şair Qafqaz hadisələrini törədən əsas qüvvəni mücərrəd olaraq belə təqsirləndirir və general-qubernatorun onun əmrinə əsasən milli qırğın törətməsini söyləyirdi:

Sən hökm eləmişdin o zinakar, ləinə,
Xəlqin içinə gətdi salıb bir belə azar.
Əkdi bu bəla toxmunu Qəfqasə sərasər,
Hər yerdə qırır bir-birini pirü cəvanlar.

Satiranın sonluğunda gəlinən nəticə də təsdiq edir ki, şair Qafqaz xalqları arasında törədilən milli qırğının əsas səbəbkarını çar üsuli-idarəsinin dövlət başçısında və ona havadarlıq edənlərdə görürdü:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünya düzələr cümlə bu insan ola qardaş,
Qurdlar qoyuna yoldaş olar, olmasa şahlar...
Sən bəsdi dəxi, fikr eləmə bir belə, Məhbus,
Qoymaz düzələ iş, nə qədər molla, keşiş var.

1905-ci ilin milli qırğın hadisələrinə həsr etdiyi «Qoburnat» rədifli ikinci satirasında Əli Məhbusun tənqid obyektləri daha da aydınlaşır. Qafqazda baş verən milli qırğın hadisələrinin aparıcı mürtəce simalarından olan çar general – qubernatoru bu satirada şairin əsas tənqid obyektidir. Şair milli qırğına səbəb olan rus çarizminin mürtəce nümayəndəsi general-qubernatorun birbaşa özünə xitab edərək deyir:

Gəldin nə üçün qavzadın üsyanı, qoburnat?
Saldın nə səbəbdən bura dəvanı, qoburnat?
Çıxdın bazara, qanfet alıb payladın əvvəl,
Çün şad elədin sən susub, hər yanı, qoburnat.
Girdin şəhərə, dalda nəçəlnik və pristav,
Yığdın başına bir sürü nadanı, qoburnat.
Meydanda durub hökm elədin pirü cəvanə,
Nahəq yerə tökdün bu qədər qanı, qoburnat.
Oldun niyə bais bu qədər qanə, a zalım?
Zülmün bürüyüb ölkədə hər yanı, qoburnat.

Şair eyni mövzuda qələmə aldığı əvvəlki satirasında milli qırğının əsas səbəbkarının kim olduğunu dolayısı ilə ifadə edib satirik tənqidin istiqamətini ona yönəldirsə, bu satirada tənqid rus çarı Nikolayın birbaşa özünə tuşlanır. Satirada şair Qafqazda milli qırğın törədib günahsız xalqları bir-birinə qırdıran rus çarı Nikolayın mürtəce

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

siyasətini ifşa edir və general-qubernatora xitabən deyirdi:

Səpdin bu yola toxmunu dünyadə sərasər,
Vermişdi sənə kim belə fitvanı, qoburnat?
Yoxsa Niqalaydan sənə olmuşdu bu fərman?
Sən qırdırasan bir-birə insanı, qoburnat!

Şair satirada çarizmin siyasəti nəticəsində günahsız insanların qırğına verildiyini, körpə uşaqların yetim qaldığını, ev-eşiklərin talan edilib viranəyə çevrildiyini söyləməklə çarizmin mürtəce siyasətini ifşa edir, onun riyakarlığını xalqa çatdırırdı:

İnsanlar ölüb, qaldı yetim körpə uşaqlar,
Elan elədin sən sora talanı, qoburnat.
Baxdın sözünə sən o cəngkar ləinin,
Viran elədin aləmi-iskanı, qoburnat.

Şeirin sonunda şair satirik tənqidi sarkazm səviyyəsinə yüksəldərək rus çarizminin nümayəndəsi olan general-qubernatoru öz mürtəce mövqeyinə və qaniçənliyinə görə iblis, şeytan adlandırır:

Nahəq yerə iblisə cəmaət şər atırlar,
Kim, söylə, görüb sən kimi şeytanı, qoburnat?!
Məhbus görüb zülmünü, od tutdu, alışdı,
Tarixini yazdı belə pünhani, qoburnat!

Hər iki satirada Əli Məhbusun müraciət etdiyi mövzu və aşıladığı ideya böyük dramaturq Cəfər Cabbarlının sonralar qələmə aldığı «1905-ci ildə» əsərinin mövzu və ideyası ilə yaxından səsləşir. Bu isə onu göstərir ki, Əli Məhbus təhsil görməsə də, yaradıcılığının sonrakı mərhələlərində dövrünün ictimai-siyasi hadisələrinə açıq gözlə baxmış, bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hadisələrin siyasi mahiyyətini düzgün qiymətləndirə bilmişdir.

Hər iki satiranın tənqid hədəfləri ilə M.Ə.Sabir satiralarının tənqid hədəfləri arasında bədii üslub və ideya, mənfi tipə ifşaçı-satirik münasibət baxımından oxşarlıq çoxdur. Bu isə təsdiq edir ki, Əli Məhbus özünün satira yaradıcılığında daha çox «Molla Nəsrəddin» ədəbi məktəbindən və M.Ə.Sabirin satira yaradıcılığından bəhrələnmişdir. Əli Məhbus da öz satiralarında bədii təsvir və səciyyələndirmə baxımından böyük satirik M.Ə.Sabirin yolu ilə gedirdi. Mənfi tiplərin tənqid və ifşa üsulları, mənfi tipin onun öz dili ilə danışdırılıb ifşa edilməsi üsulu eynilə Əli Məhbusun satiralarında da vardır. Onun da mənfi qəhrəmanları M.Ə.Sabir satiralarının mənfi qəhrəmanları kimi yurda və xalqa biganə olan, yalnız öz şəxsi mənafelərini düşünən vətən və millət xainləridir.

Əli Məhbusun 1905-ci il inqilabından sonra 1906-1907-ci illərdə qələmə aldığı satiralarında da M.Ə.Sabirin qüvvətli təsiri duyulur.

M.Ə.Sabirin «Millət necə tarac olur-olsun, nə işim var», «İranlı gərək ömr edə zillətdə həmişə», «İranlı gərək can verə qürbətdə həmişə», «İranlı kimi yatmayın, Allahı sevərsiz», «Fəhlə də özünü daxili-insan edir indi», «Dövlətliyik, əlbəttə, şərafət də bizimdir» satirik misralarının ideya istiqaməti ilə səsləşən satiralarında Əli Məhbus mənfi tiplərin öz dili ilə onların iç üzünü açır və o da satirik tənqid baxımından M.Ə.Sabirin ədəbi mövqeyində

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dayanırdı. Bu tipli satiralarının birində Əli Məhbus xalqın malını yeyib harınlayan mülkədarın dili ilə onun vətənə və xalqa olan düşmən münasibətini satiranın ifşa hədəfinə çevirir:

Biz istəyirik  bu vətəni zir-zəbər olsun,
İranlı kibi əhli-vətən dərbədər olsun.
Şəxsi doyuraq qarnımızı misl bəhayim,
Övladi-vətən ac qalacaq sərbəsər, olsun.
Geysin bizim arvadlarımız cümləsi qastum,
Çıxsın canı çılpaq qalanın, hər bəşər olsun.
Gəzsin, nə qədər var canı, üryan, canı çıxsın,
Yatsın gecə bir guşədə, dursun, səhər olsun.

M.Ə.Sabirin varlı mülkədarın dili ilə əkinçiyə dediyi «Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən», «Öyrənməmisən ət-yağa dünyadə, əkinçi» misralarının ifadə etdiyi satirik məna xüsusiyyətlərini Əli Məhbusun bu satirasında da görürük. Satirada mülkədar yoxsul füqəra əhlini lağa qoyub deyir:

Qar yağsa, yağış yağsa, ona heç əsər etməz,
Ögrənmiş adamdır, yatacaq, hər təhər olsun.
Aclıqda da var tabı, bir il ac qala, ölməz,
Torpaq da yeyər, daş da yeyər, ta zəhər olsun.
İsti-soyuğu, aclığı, çılpaqlığı qanmaz,
Tab eyləyəcək hər nə qəzavü qədər olsun.
Dünyayə gəlib çünki özün fə’lə görübdür,
Çöllərdə gedib işləyəcək, gər nələr olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç istəməz olsun özü öz hakimi əsla,
İstər ki, bunun hakimi hər kim gələr olsun.
Çünki babası başın açıb xan-bəyə daim,
İndi bu da istər onu irsi-pedər olsun.

Satiranın sonrakı misralarında şair öz mənfi qəhrəmanının dili ilə yoxsul fəhləni itaətli olmağa, öz qonşusu iranlının aqibətindən ibrət alıb mülkədarın üzünə ağ olmamağa çağırır ki, bu da tipin bu tərzdə rişxəndlə danışdırılması üsulunun M.Ə.Sabirdən gəldiyini təsdiq edir:

Baş əyməsə, ağrır başı, İranə yavuqdur,
İnsanda gərək bir dənə çeşmi-bəsər olsun.
Açsın gözünü, qonşusuna bir nəzər etsin,
Hər bir felindən də onun baxəbər olsun.
Görsün necə onlar dağılıb çöllərə üryan,
Onlar kibi yuxlaya gərək, müxtəsər olsun.
Yüzdən biri iranlının ölməz vətənində,
Hacı, məşədi, molla, seyid, rəncbər olsun.
Yorğanı çəkər başına, yuxlar oli rahət,
Mənzil-bucağı, tavla, dəyirman gəzər olsun.

Şair satiranın sonluğunu da M.Ə.Sabir şeirinin satirik üslubuna uyğun şəkildə tamamlayır:

Qoy əhli-vətən cümlə qaranlıqda dolansın,
Elmə, ədəbə qaçmasın el, bixəbər olsun.
Baxsın buların halına Məhbus, oda yansın,
Dursun o qədər fikr eləsin, didətər olsun.

Əli Məhbus M.Ə.Sabirin «Əkinçi», «Fə’lə» rədifli satiralarının təsiri altında qələmə aldığı şeirlərində Sabiri təqlid etməsə də, onun şeirlərinin ideya-estetik qayəsi mövqeyindən çıxış edirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mülkədar və ruhanilər qarşısında itaətkarlıq göstərib öz hüquqlarını tələb etməyən fəhlə və əkinçilərə rişxəndsayağı münasibət Əli Məhbusun da satiralarının bədii-poetik məziyyətlərindən idi. Əli Məhbus da M.Ə.Sabir kimi islamiyyətin müsəlmanlara əta etdiyi səbr fəlsəfəsinə boyun əyən fəhləni, əkinçini rişxənd üsulu ilə oyatmağa çalışır, onu qəflətdə qalmamağa çağırırdı:

Səbr et, əkinçi, binəva, əssəbr müftəhil fərəc[1],
Çox ağlayıb etmə nəva, əssəbr müftəhil fərəc.
Sən fə'ləsən, heç qəm yemə, dünyadə rahət olmassan,
Yay-qış peşəndir işləmək, bir-saət işdən qalmassan,
Sən ac çəkərsən zəhməti, xan-bəyləri ac qoymassan,
Sən işlə, xan sürsün səfa, əssəbr müftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr müftəhil fərəc.

Göründüyü kimi, «Molla Nəsrəddin» jurnalının satirik ovqatı, xüsusilə M.Ə.Sabirin eyham dili ilə obrazın səciyyələndirilməsi üsulu bu satirada da eynilə özünü göstərir. Lakin Əli Məhbusda M.Ə.Sabiri təqliq yoxdur. Şair satirada Sabir mövzularına müraciət etsə də, kəndliyə olan rişxəndsayağı münasibətini özünəməxsus satirik çalarlıqda ifadə edir:

Kəndçi gərək əksin əkin, dünyadə rahət olmasın,
Buğdanı yığsın anbara, əhli-əyalı görməsin,
Övladını ac saxlasın, buğdanı xan-bəylər yesin,

[1] Əssəbr müftəhil fərəc – Səadətin açarı səbrdədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndçi gərək çəksin cəfa, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Kəndçi gərək üryan gəzə, heç tazə paltar geyməyə,
Xüms zəkatın vermiş ola dinmədən verməyə,
Arpa, darı, çovdar yeyə, buğda lavaşın görməyə,
Molla gərək olsun riza, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Əli Məhbusa görə, kəndli və dehqanların, gün çörəyinə möhtac olub ac qalan əli qabarlı fəhlənin səbr etiqadına itaətkarlığının əsas səbəbkarları müftəxorluğa alışmış bəzi din xadimləri, axund və mollalardır:

Xəlq eləyib xaliq səni çöllərdə zəhmət çəkməgə,
Günlər qabağında yanıb, şamü səhər əlləşməgə,
Bikar olanda xanların paltar-palazın silkməgə,
Beylə yazıb Molla Rza: «Əssəbr miftəhil fərəc»,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Hökmi-şəriət belədir, çıxsan sözündən mollanın,
Xanə itaət etməsən, düşdün gözündən mollanın,
Xandır xudavəndin sənin, get sor özündən mollanın,
Sən bəndəsən çünki xana, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Yaradıcılığının əvvəlki dövrlərində qələmə aldığı «Behişt» rədifli satirasında da Əli Məhbus mövhumatla mübarizədə mollanəsrəddinçilərin satirik-tənqidi mövqeyində dayanır və bir mollanəsrəddinçi şair kimi bəzi fırıldaqçı din xadimlərinin xalqa zidd mövqeyini ifşa edirdi:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkdilər qürə, düşübsən bu müsəlmanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Verdilər mollalara çünki behiştin haçarın,
Doğdu ulduzları hər yerdə təmamən oların,
Satdılar onlar da möminə Ənsar almaların,
Oldu Təbriz bazarı alimə, ürfanə behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Şairə görə islamın müqəddəs qanunlarını bir tərəfə qoyub yalnız öz şəxsi mənfəətlərini güdən bəzi axund və mollalar qarınlarını doyurmaq xatirinə cənnəti də «bircə qoyun bozbaşına» satır, avam camaata huri-qılman vədi ilə məscidlərdə göz yaşı tökdürürlər:

Verdilər üç bağını bircə qoyun bozbaşına,
Tökdülər gör necə kül bircə bu dinin başına,
Huri-qılmanları da satdıla bir göz yaşına,
Oldun əttar dükanı Molla Cəfər xanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Satirada şair fırıldaqçı mollaların itaətində duran avam və cəhalətpərəst müsəlmanlara başa salırdı ki, məscid və mədrəsələrdə axirət vədləri ilə sizə göz yaşı tökdürən riyakar mollalar sizi adam yerinə qoymayan ağaların və xanların sadiq havadarları və onların dayaqlarıdır:

Ağladıblar bu müsəlmanları hər yerdə bular,
Məscidü mədrəsədə, çarsuda, dükanda bular,
Bağda, bostanda, bütün hücrədə, eyvanda bular,
Etdilər kuçələri cümlə ağa, xanə behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əli Məhbus avam camaata bunu da başa salırdı ki, cəhalətpərəst din xadimləri, bəzi fırıldaqçı axund və mollalar müsəlmanlara dostu ilə düşmənini tanıdan, onlara elm, maarif, mədəniyyət və tərəqqi yolunu göstərən əhli-qələmlərin də qatı düşmənləridir:

Heyf, bu sözlərimi həcvə hesab eyləyəcək,
Mən Məhbusə o molla belə lənət edəcək,
Sonda bostan dəyəsincə mənə yer verməyəcək,
Bir tamaşa eləyəm huri və qılmanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

1908-ci ildə qələmə aldığı satiralarında da Əli Məhbus cəmiyyətin tüfeyli təbəqələrinə, müxtəlif fırıldaqlar yolu ilə xalqı aldadıb pul qazanan müftəxorlara satirik-tənqidi münasibətini ifadə edirdi. «Məni» rədifli satirasında şair dəlləklik peşəsi ilə məşğul olan usta Qafar adlı bir fırıldaqçının əməllərini ifşa edir. Baş qırxmaqla güzəran keçirən usta Qafar özünü tibb sənətini bilən həkim kimi tanıdaraq sünnət əməliyyatı aparıb uşaqların işgəncəsinə və ölümünə səbəb olur. Şair özünü həkim kimi qələmə verib camaatı aldadan fırıldaqçı usta Qafarı satiranın kəskin dili ilə ifşa ediərək yazırdı:

Deyirlə sən həkimsən, şəhərdə vardı şöhrətin,
Çıxıb adın bu ölkədə, vardı əcəb təbabətin,
Ülgüc əlində durmusan, Şimrə də var şəbahətin,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pul almağa həkimsən, bu elmə yoxdu diqqətin,
Ölər naxoş quzuların, sənin ki, yoxdu zəhmətin,
Al pulunu, cəhənnəm ol, qatili olma millətin,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Həyatda gördüyü və şahidi olduğu usta Qafar kimi qazanc məqsədi ilə uşaqların faciəsinə bais olan prototiplərin ifşası Əli Məhbusun xalqa, milli məişətə bağlılığından irəli gəlirdi. Şair əsrlərcə əsarət və cəhalətdə ömür sürən xalqının cəhalət zəncirindən xilas olub azadlığa çıxmasını və milli tərəqqiyə sahib olmasını arzulayırdı. Lakin 1914-cü ildə Birinci Dünya Müharibəsinin başlanması Azərbaycanda şeir-sənət adamlarının mənəvi böhranına səbəb olduğu kimi, Əli Məhbusun da azadlığa olan inamını sarsıtdı. Bu dövrdə şairin keçirdiyi mənəvi iztirablar və pessimist əhvali-ruhiyyəsi onun şeirlərində də qabarıqlığı ilə ifadə olundu. 1914-cü ildə qələmə aldığı bir şeirində şair bəşəriyyətdə insanlıqdan, sədaqət və dostluqdan əsər-əlamət qalmamasından acı-acı şikayətlənərək yazırdı:

Mən bu insanlara baxdım, işim əfğan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.
Durub açdım gözümü, seyr elədim dünyanı,
Kuh-səhranı dolandım belə mən, hər yanı,
Bivəfa gördüm, əzizan, o qədər insanı,
Bu səbəbdən belə dünya mənə zindan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əli Məhbus şeirdə insanlığın dərdini çəkdiyi üçün sərsəri vəziyyətə düşdüyünü, mənəvi dəyərlərdən uzaqlaşan insanlara təsir göstərmək, onlara bəşəri-humanist ideyalar aşılamaq üçün əlinə qələm-dəftər aldığını vurğulayır, dünyanın qarşılaşdığı müsibətlər üçün vətəndaşlıq kədəri çəkdiyini bildirirdi. Çünki bu şeirin qələmə alındığı 1914-cü ildə bəşəriyyət qarışmış, Birinci Dünya Müharibəsi başlamışdı. Vətən və millət dərdi çəkən Hadilər, Səhhətlər, Cavidlər, Şaiqlər dünya kədəri problemi ilə üzləşərək çoxları pessimizmə qapılmışdılar. Sənət adamlarının şəxsi kədəri ilə ictimai vətəndaşlıq kədəri birləşmişdi. Şeir- sənət aləmində idealla varlıq, xəyalla həqiqət arasında dərin bir uçurum yaranmışdı. Belə bir ictimai-siyasi şəraitdə «dünyanı seyr eləyən» Əli Məhbus da «insanlara baxmış», «işi əfğan» olmuşdu:

Olmuşam indi odur ki, belə bir sərsəri mən,
Almışam çün əlimə beylə qələm-dəftəri mən,
Yazıram dəftərə hər dərdi, müsibətləri mən,
Məni çün dərdə salan bu dili-viran oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Azadlıq idealının sarsılması Əli Məhbusun insanlara olan inamını da sarsıtmışdı. Odur ki, şair ictimai vətəndaşlıq kədərini ifadə etməklə yanaşı, şeirdə öz şəxsi kədərini də dilə gətirir və yazırdı:

Gördüm insanda belə mən o qədər cövrü cəfa,
Görmədim bircə nəfər ta ki, sözü düzgün ola.
Hər kimə dost dedim, gördü mənə zülm rəva,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzümə güldü, gedib daldada düşman oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Lakin bu şəxsi kədərə baxmayaraq, şair yenə də şeirin sonluğunu ictimai vətəndaşlıq kədəri ilə tamamlayırdı:

Oturub guşeyi-viranədə Məhbus təkin,
Çəkirəm mən genə bu fə'lələrin dudi-ğəmin.
Çün özüm tək görürəm eldə olan əbləhlərin
Biri künəkizçi, həsirçi, biri kənkan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Lakin 1914-cü ildən sonra baş verən 1917-ci il inqilabı Əli Məhbusun xalqın milli azadlığına olan inamını geri qaytardı. Bu inqilabın xalqlara vəd etdiyi milli azadlıq ideyalarına inanan şair pessimist əhvali-ruhiyyədən ayrılıb yenidən satirik qələmə sarıldı. Əli Məhbus 1917-ci ildə qələmə aldığı satiralarında da mövhumata qarşı mübarizə mövqeyində dayanır, «Molla Nəsrəddin» jurnalının və M.Ə.Sabirin ədəbi ənənələrini davam etdirirdi. «Mollaların dünyadan şikayəti» adlı satirasında M.Ə.Sabirin:

Ax, necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi.

-misralarının satirik övqatını yenidən sənətə gətirən Əli Məhbus özünün mollanəsrəddinçi mövqeyini və M.Ə.Sabir ədəbi məktəbinin davamçısı olduğunu bir daha təsdiq etdi.

«Molla Nəsrəddin» jurnalının və onun karikaturalarının satirik məna duyumu ilə vəhdət təşkil edən bir satirasında Əli Məhbus mənfi tipin dili ilə onun keçmiş günlərə olan həsrət və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həsədinin satirik mənzərəsini verir. Artıq müsəlman dünyası oyanmış, avam camaat pislə yaxşını dərk edərək dostu ilə düşmənini tanımış, mollaların xalqın ağır güzəranı hesabına əldə etdikləri firavanlığı əllərindən alınmışdır. Odur ki, harın həyat keçirməyə adət etmiş bu mollalar keçmiş əyyamların həsrətini çəkirlər. Şair satirada mollanın dili ilə deyir:

Səd ah! Necə getdi o dövran əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.

Məscidlər idi bizlərə bir təxti-xilafət,
Eylərdilə məsciddə bizə qul tək itaət,
Səf-səf düzülərdi qabağa köhnə cəmaət,
Mənbərdə öpərdi bu müsəlman əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.

Mömin kişilər getdi bütün, qaldıla bic-mic,
Tanımırla nədir din ilə imanı bular hiç,
İndi dolaşır din ilə imanə də hər gic,
Az qaldı gedə, ay kişi, iman əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.

Xalq içərisində hörmət və ehtiramlarını itirən bu üzdəniraq mollaların artıq müftə gəlir mənbəyi kəsilmişdir. Heç kim artıq onları faytonlara oturdub evlərə qonaq aparmır. Məclislərdə yedikləri yağlı plovlar da bu müftəxorların əllərindən çıxmışdır:

Günlər keçirirdik nə gözəl əski zəmanda,
Ləzzət aparırdıq bütün asudə cəhanda,
Faytunda gedirdik bizi mehman aparanda,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı onu bu gərdişi-dövran əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.
Məsciddə edərdik gecə-gündüz biz ibadət,
Çox-çox qazanardı bizə sərvət bu itaət,
Axırda du yublar o içi fitnə cəmaət,
Getdi dəxi ol sərvəti-pünhan əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.
Möminlərinən biz necə söhbətlər edərdik,
Bir yerdə durub məclisi-ehsanə gedərdik,
Ehsanda gözəl yağlı plovlar da yeyərdik,
Dünya dolanıb, getdi o ehsan əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.

1917-ci il inqilabının qələbəsindən sonra şura söhbətlərini sindirə bilməyən bu mollaların bütün imtiyazları əllərindən alınmışdır. Oyanmış müsəlmanlar artıq onların ardınca getmir, cəfəng vəzlərini dinləmirdilər. Ona görə də bütün imtiyazları əlindən çıxan molla deyir:

Allahı danıb, söhbəti-şuranı salıblar,
Allah evini zülm ilə bizlərdən alıblar,
Məhbus kibi bizləri bu həbsə salıblar,
Dutmur dəxi hiç bircə müsəlman əlimizdən,
Xan-bəylər olan məclisi-əyan əlimizdən.

Əvvəlki yaradıcılığında olduğu kimi, Əli Məhbusun 1917-ci ildə qələmə aldığı satiralarında da mollanəsrəddinçilərin müraciət etdiyi mövzular sənətə gətirilir, milli məişətdə olan dəyişikliklərə, mədəni tərəqqiyə münasibət bildirilirdi. 1917-ci il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

inqilabından sonra Azərbaycan milli məişətində, adət-ənənəsində və etnik mədəniyyətində baş verən dəyişikliklər və tərəqqiyə olan meyllər cəmiyyət həyatında bu hadisələrə münasibət baxımından camaatı iki qrupa ayırmışdı. Bunlardan biri keçmiş ata-baba yolu ilə getməyi üstün tutanlar, digəri isə dədə-baba adətlərindən ayrılıb yeni milli mədəniyyət yaratmağa və daha çox Avropalılaşmağa meyl edən insanlar idi.

İnqilab nəticəsində oyanan müsəlman kişilərinin bir qismi keçmişdən qalan Buxara papaqlarını çıxarıb şapqa qoymuş, qadınların bir qismi isə çadranı atıb yubka geymişdilər. Azərbaycan milli məişətində baş verən bu oyanış din xadimlərini daha çox qəzəbləndirir, onların hiddətinə səbəb olurdu. Bu mənzərə Əli Məhbusun satiralarında da tənqid obyektinə çevrilir və obrazların öz dili ilə səciyyələndirilirdi. Bu ruhlu satiralarının birində şair bir nəfər tərəqqipərəstin ümumiləşmiş obrazını yaradır:

At papağı – söylədin, atdım, Sona,
Şapqa qoyub oxşuyuram Vartana.
Molla Qasım gördü məni, danladı,
Şapqama baxdı, salamım almadı,
Acıqlanıb baş-qulağın tulladı,
Söylə görüm, mən nə deyim bəs ona,
Şapqa qoyub oxşuyuram Vartana.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məscidə qoymur o mücavir məni,
Söyləyir get, çıx çölə, ey ərməni,
Cəhənnəm ol, get, a dinin düşməni,
Düşman olubsan bu dinə, imana,
Şapqa qoyub oxşamısan Vartana.

XX əsrin əvvəllərində Azərbaycanda gedən milli oyanış və tərəqqi meylləri Təbriz ruhanilərinin, eləcə də Tehrandakı din xadimlərinin təşvişinə və ciddi narazılığına səbəb olmuşdu. «Molla Nəsrəddin» jurnalının səhifələrində işıqlandırılan bu məsələ Əli Məhbusu da düşündürmüş, o da öz satirasında bu məsələyə toxunmuşdur:

Şapqa şəriətdə haramdır bizə,
Vay, bu xəbər getsə əgər Təbrizə,
Həp üləma lənət edərlər bizə,
Bil ki, yazarlar bu sözü Tehrana,
Şapqa qoyub oxşuyuram Vartana.

Satirada «Molla Nəsrəddin» jurnalının vaxtaşırı müraciət etdiyi Azərbaycan qadınlarının oyanması və azadlığı mövzusuna da toxunulurdu. Şair öz qəhrəmanının dili ilə Sonaların da artıq oyandığını, tərəqqi və mədəniyyətə meyl etdiyini acıqlayır və qadın hüququ məsələsinə toxunurdu:

Çadranı atdın, sözümə baxmadın,
Yupqanı geydin, tumanı tulladın,
Bir gecə də evdə şişib qalmadın,
Lütcə gedirsən bazara, dükkana,
Şapqa qoyub oxşuyuram Vartana.

Arsız olubsan, gələsən lənətə,
Yaxşı tüpürdün namusa, qeyrətə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən məni saldın bu qədər töhmətə,
Mən də tüpürdüm o əbayə, dona,
Şapqa qoyub oxşuyuram Vartana.
Bais olubsan mənə, kafər Sona,
Hər bir işindən xəbərim var, Sona,
Qofta geyib olmusan murdar, Sona,
Bəsdi, ütan bircə, a savsar[1] Sona,
Şapqa qoyub oxşuyuram Vartana.

M.Ə.Sabir yaradıcılığında olduğu kimi, Əli Məhbusun satiralarında da milli azadlıq uğrunda mübarizə, hakim dairələrin özbaşınalığına qarşı etiraz və üsyankarlıq əhvali-ruhiyyəsi, xalqı cəhalətdə saxlayan axund və mollaların xalqa zidd mövqeyinin tənqidi başlıca mövzulardan idi. Bu mövzuların Əli Məhbus yaradıcılığında əsas yer tutması təsadüfi olmamışdır. Bacısı oğlu C.Məmmədquluzadənin söhbətlərini dinləyən, onun ədəbi məktəbinə bələd olan Əli Məhbus, çox güman ki, C.Məmmədquluzadənin müsəlman fanatizminin tənqidində qarşılaşdığı çətinliklərdən, «Molla Nəsrəddin» jurnalının nəşri tarixində qaragüruhçu din xadimlərinin dəfələrlə jurnalın bağlanması haqqında verdikləri mürtəce fitvalarından, C.Məmmədquluzadənin məhkəmələrlə üzləşməsindən xəbərdar idi. Odur ki, bütün bu hadisələri eşidən və onların şahidi olan Əli Məhbus mürtəce din xadimlərinin , axund və mollaların xalqa zidd mövqeyini, onların demokratik hərəkata düşmən münasibətini bilir və

---

[1] Savsar – Vəhşi heyvan adıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

satirik şeirlərinin müəyyən bir qisminin mövzularını da bu istiqamətə yönəldirdi. Şair «Molla Nəsrəddin» jurnalının bağlanması haqqında verilən mürtəce fitvaların dini mərkəzlərdən gəlməsini, yerli din xadimlərinin isə hakim dini dairələrin göstərişlərini icra etdiklərini çox gözəl dərk edirdi. Odur ki, dini mərkəzlərə toplaşıb demokratik inkişafın əleyhinə fitvalar verən dindar üləmalar Əli Məhbus satiralarının tənqid hədəfinə çevrilirdi. Şair bu istiqamətdə qələmə aldığı satiralarının birində Nəcəfdəki bəzi üzdəniraq üləmaların tənqidini verir, onları «himarül-üləma» deyə eşşəyə bənzədirdi:

Nəcəfə qoydula ad eylə ki, darül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.
Orda iclas eləyib, millətə gün ağladılar,
Mövhumat ilə durub gözlərini bağladılar,
Bu qaranlıqda o biçarələri saxladılar,
Çıxdı ordan bulara beylə qərarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Əli Məhbus satirada müsəlman dünyasını parçalamağa, onlar arasında nifaq salmağa xidmət edən sünnü-şiə məsələsinə də toxunur, bu mürtəce ideologiyaya dindar üləmaların rəhbərlik etdiklərini bildirirdi:

Elm təhsil eləyib açdıla xəlqin gözünü,
Gətirib ortalığa saldıla sünni sözünü,
Baxdı millət olara, qırdı bütün öz-özünü,
Belə kor millətinən doldu kənarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir kitab əhli qırıb bir-birini, tokdülə qan,
Çün bu fitvanı verib molla filan, ibn filan:
“Öldürün sünnüləri, şiə, budur hökmi-Quran”,
Bu fəsadı törədib eylə şüarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Biri qırx il oxuyub, qanmadı zirü zəbəri,
Çağırıb başına yığdı bu əvam siələri,
Ayırıb bunları, düşman eləyib sünniləri,
O səbəb oldu, qızıb beylə bazarül üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Şair satirada üləmaların fitvasına aldanıb bir-birinə düşmən olan müsəlmanlara xatırladırdı ki, sünnülərin də, şiələrin də peyğəmbəri birdir və onların hər ikisi Məhəmməd peyğəmbərin qoyduğu şəriət qanunları ilə yaşayırlar. Belə olduğu halda müsəlmanların iki firqəyə parçalanıb bir-birinə düşmən olmaları şəriətə ziddir. Bu cür daxili parçalanmalar təkcə ayrı-ayrı müsəlmanların deyil, bir sıra müsəlman dövlətləri arasında qanlı müharibələrin törənməsinə də səbəb olur:

Bir kitab əhli edən bizləri peyğəmbər idi,
Özü də onda bizim cümləmizə rəhbər idi,
Ömər, Osman, Əbubəkr, Əli sözbir idi,
Bizi onlardan ayırdı bu niqarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.
Bir kitab əhli olub bir-birinin ədvanı,
Çəkdi İran qoşunun, getdi, qırıb Türkmanı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir tərəfdən də o Əfqan dağıdıb İranı,
Belə millət dağılıb oldu beharül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Şair riyakar din xadimlərinin yalan vədlərinə aldanan mövhumatçı müsəlmanlara başa salmaq istəyirdi ki, üləmaların təbliğ etdikləri dini ibadətdən əsas məqsədləri öz həyatlarının firavanlığını təmin etməkdir. Bu yolla onlar avam camaatı itaətdə saxlayır və özlərinə ticarət qapısı açırlar. Qazılar, mollalar və keşişlər isə bu yolda onlara havadarlıq edirlər:

Etdilə bizləri çün sahibi-sənət üləma,
Örgədiblər nə gözəl elmi-ibadət üləma,
Açdılar özlərinə babi-ticarət üləma,
Cümlə dünyada çəkildi belə carül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Belə məlum olur çün budu dünyanın işi,
Bizə rəhbər eləyib qazini, molla-keşişi,
Sala onlar da cəhanə bu qədər keşməkeşi,
Müftə gəlsin evinə leylü nəharül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Şairə görə, qeyri-müsəlman olan müxtəlif millətlər arasında düşmənçiliyin, dini nifaq və ayrıseçkiliyin salınmasına səbəb də din xadimləri, axund, molla və keşişlərdir:

Adəm övladını bunlar ayırıb etdilə xar,
Birisi ərməni oldu, birisi gürcü, tatar,
Oldu düşman hamısı bir-birinə hər nə ki, var,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yandırıb din oduna bunları narül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Çünki düşmandıla hər ölkədə insanə bular,
Gördülər qandırıram sözləri nadanə bular,
Məni Məhbus eləyib saldıla zindanə bular,
Çün deyərdim ki, bütün hiylədi karül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Bu istiqamətdə qələmə aldığı satiralarında Əli Məhbus xalqı itaətdə saxlayan bir sıra din xadimlərinin mürtəce mövqeyini açıb göstərir, onların demokratik hərəkata düşmən olduqlarını xalqa başa salırdı. Özünün mütərəqqi ideyasına görə «Molla Nəsrəddin» jurnalının demokratik məramı ilə yaxından səsləşən bu tipli satiralarında Əli Məhbus mövhumatla açıq şəkildə mübarizə aparır və mollanəsrəddinçilərin ədəbi-estetik mövqeyində dayanırdı. Təsadüfi deyildir ki, şair mövhumatın xalqın mədəni tərəqqisinə əngəl olmasını tam dolğunluğu ilə dərk etdiyi üçün bu mövzuda yazdığı tənqidi şeirlərindən birinin başlığını «Mövhumatla mübarizə» adlandırmışdır. Müsəlman aləmində baş alıb gedən vəhşiliklərin, dini mərasimlərdə tökülən göz yaşlarının, ərşə qalxan nalə və vaveylaların, avam camaatı məscidlərdə cənnət vədləri ilə aldadan Molla Pəhləvanların ifşası şeirin əsas qayəsini təşkil edir. Mədəni geriliyin baş alıb getməsinə dözə bilməyən şair böyük ürək yanğısı ilə yazırdı:

Yandırıb yaxdı cahanda vəhşiyyət bica bizi,
Qoymur bir şad olaq bu ah, vaveyla bizi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldadıb yıxdı bizi məscidlərə fəssadlər,
Ağladıb hər gündə söydü bir neçə molla bizi.
Minbər üstündə oturdu, mövhumatın da deyib,
Saxladı ta sübhətək ol bihəya ehya bizi.
Satdılar huriləri göz yaşına bir-bir bizə,
Daima kefləndirib bu söhbəti-hüda bizi.
Başə vurduq, göz yaşın tökdük həsirin üstünə,
Kəsbdən qoydu tamamən bisəmər sövda bizi.
Bilmədik ta şor suya verməzlə huri qızların,
Qanmadıq ki, vəhşiyyətdə saxlayıb ağa bizi.
Hökm edirdi baş yarın, cənnət sizindi sərbəsər,
Qonşular gülsün görəndə qan ilə həmra bizi.
Bu qaranlıqda qoymuşdu bizi Molla Pəhləvan,
Eyləyib heyvan, necə minmişdi o supa bizi.
Xabi-qəflətdə yatırdıb, söylədi lay-lay bizə,
Qoymub bir göz açaq dünyadə heç əsla bizi.

Şeirdə Əli Məhbusun qadın azadlığı probleminə, azyaşlı qızların zorla ərə verilməsi məsələsinə də açıq tənqidi münasibəti vardır. Vaxtı ilə Naxçıvanda Eynəli bəy Sultanovun “Tatarka” (“Azərbaycan qadını”) pyesi ilə və 1907-ci ildə C.Məmmədquluzadənin «Molla Nəsrəddin» jurnalında dərc etdiyi «Erməni və müsəlman övrətləri» felyetonu ilə başlayan qadın azadlığı problemi «Təsəttüri – nisvan» başlığı altında Bakıda və Tiflisdə çıxan Azərbaycan və rusdilli mətbuat orqanlarının səhifələrində müzakirə obyektinə çevrilmişdi. C.Məmmədquluzadə, Eynəli bəy Sultanov, Hüseyn Minasazov, Rəhimbəy Məlikov, Həmzət bəy Qabulov – Şirvanski, Əhməd bəy Ağayev kimi maarifçi-demokrat və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

publisist ziyalılar «Molla Nəsrəddin», «Bakinskiy den», «Zakavkazye», «Zakavkazskiy reç» kimi qəzetlərin səhifələrində polemikalar açır, qaragüruhçu din xadimləri ilə, onların antidemokratik fitvaları ilə qarşılaşmalı olurdular. M.Ə.Sabir, Əli Nəzmi, Ə.Qəmküsar kimi mollanəsrəddinçi şairlər də qadın azadlığı, azyaşlı qızların kəlpeysər qocalara zorla ərə verilməsi haqqında yazdıqları satirik şeirlərində tənqidi mövqedə dururdular. Çox güman ki, Əli Məhbus da öz bacısı oğlu Cəlil Məmmədquluzadənin əhatəsində və mollanəsrəddinçilərin mühitində baş verən bu məsələlərdən xəbərdar idi. Odur ki, şair mollanəsrəddinçilərin məramına sadiq qalır, o da öz şeirlərində azyaşlı qızların zorla ərə verilməsinə tənqidi münasibətini ifadə etməkdən çəkinmirdi:

Yeddi sinndə qızı verdik ərə çox zülm ilə,
Gör necə etmişdilər bir vəhşiyi-səhra bizi.
Kur-kuranə yaşadıq mövhumat ilə təmam,
Bu cəhalətdən qurtardı bir nəfər dana bizi...

1918-20-ci illərin mürəkkəb hadisələrinin tüğyan etdiyi bir zamanda mollanəsrəddinçilərin tez-tez müraciət etdiyi siyasi mövzular Əli Məhbusun da yaradıcılığında öz əksini tapırdı. 1919-cu ildə Azərbaycanın siyasi həyatında baş verən gərginlikləri, xüsusilə qəsbkar ingilislərin Azərbaycana soxulub qanlı qırğınlar törətməsini mollanəsrəddinçilər kimi, Əli Məhbus da satirik tənqidlə qarşılayır, ingilislərin qəsbkar siyasətlərini ifşa edirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair bu münasibətlə 1919-cu ildə qələmə aldığı bir şeirində yazırdı:

Bir usan, ey bihəya, qırdırma bu insanları,
Toplar altında dağıtma bu gül tək canları,
Qoyma dünyadə oğulsuz binəva piranları,
Sən olarsan axırda dərdə giriftar, ingilis!
Qansoran, zalım, cahanda mərdimazar, ingilis!

Ə.Qəmküsarın qələmə aldığı «İngiltərə» şeiri ilə səsləşən bu bədii parçanın məzmunu təsdiq edir ki, Əli Məhbus da C.Məmmədquluzadə və digər mollanəsrəddinçi şairlər kimi, Birinci Dünya Müharibəsinin tüğyan etdiyi vaxtlarda, Azərbaycanın üstünü qara buludlar bürüyən zaman vətənin ağır taleyini düşünmüşdür. Azərbaycanda milli-azadlıq ideyalarının sarsıldığı, idealla varlıq, xəyalla həqiqət arasında dərin bir uçurumun yarandığı vaxt Əli Məhbus da digər mollanəsrəddinçilər kimi, ürəyində çəkdiyi vətən dərdini qəmli-romantik bir üslubda ifadə edirdi. Şair «Ey vətən» rədifli şeirində vətən qəmi mövzusunu əsas götürərək XX əsrin ilk onilliklərində milli azadlıq eşqi ilə çırpınan vətənin taleyinə ictimai-siyasi məzmun verir, öz vətəndaşlıq mövqeyini romantik hisslərin qəmli axarında təsvir edirdi:

Hər baxanda mən sənə, bağrım olur qan, ey Vətən,
Olmusan, ayə, neçün sən belə viran, ey Vətən?!
Qalmayıb bir yer sələmət, hər yerin viranədir,
Od vurublar sərbəsər, eyliblər suzan, ey Vətən!
Yoxdu bir abad yerin, səndə görübən şad olam,
Qəsri-alilər olub xak ilə yeksan, ey Vətən!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dönmüsən sən bir xərabəzarə, yox səndən nişan,
Yoxsa səndə olmayıb heç bircə insan, ey Vətən?!

Şeirdə klassik romantik üslubla səsləşən poetik məqamlar da vardır. Şair özünün vətən dərdini klassik qəzəl janrının poetikasına uyğun bir üslubda, peyzaj lirikasının bədii xüsusiyyətləri tərzində ifadə edərək ictimai vətəndaşlıq kədərinə emosional çalarlıq verir:

Bağların bənzərdi bir səhni-gülüstanə sənin,
Əsdi hardan bəs xəzan, soldu gülüstan, ey Vətən!
Qaçdı bülbüllər, dağıldı, etdilər səndən fərar,
Qaldı bisahib, olub güllər də xəndan, ey Vətən!
Dəstə-dəstə bağlarında seyr edirdi hurilər,
Görmürəm bircə nəfər mən səndə qılman, ey Vətən!
Görməyə yoxdur gözüm hərgiz səni bu hal ilə,
Halətin eylər məni baxdıqca giryan, ey Vətən!

Şair dözülməz işkəncələrə, istismar və zülmə, haqsızlıqlara düçar olan doğma vətənin başıpozuqluğuna, siyasi hakimiyyətin pərakəndəliyinə, hökumət orqanlarındakı qanunsuzluqlara, dövlət strukturunun, siyasi hakimiyyətin tez-tez dəyişilməsinə dözə bilmir, ictimai arenada «xan-xan» oyunu oynayan dövlət başçılarının siyasi oyunbazlıqlarını tənqidlə qarşılayırdı:

Olmuşam aciz belə, eylim şikayət mən kimə?
Var nə hakim, nə hökumət, yoxdur divan, ey Vətən!
Bir kişi bir gün çıxır taxta, biri taxtdan düşür,
Bilmirəm bunlar neçin oynallar «xan-xan», ey Vətən?
Yoxdu bu millətdə yoxsa bir nəfər sahibkamal?
Bir deyə: axır nədir bu cəhlü üsyan, ey Vətən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair şeiri humanist bir sonluqla tamamlayır, vətən torpağındakı iğtişaşlara son qoymaq, vətəni azadlığa çıxarmaq üçün vətən övladlarını bəşəri humanizmə və birliyə səsləyirdi:

Biz əgər indi birik, ayə, nədir bu iğtişaş?
Olmuyaq ayrı, olaq bizlər bir insan, ey Vətən!
Olmuya bağban sözü, çayçı, çörəkçi, rəncbər,
Bir ola bostançı, çərçi, cümlə dehqan, ey Vətən!
Can deyə daim gərək ülüvvü ədna bir-birə,
Ta olaq bizlər bütün, bir cismü bir can, ey Vətən!
Saxlayaq əlsiz-ayaqsız, binəva bikəsləri,
Qalmasınlar ac-susuz, çöllərdə nalan, ey Vətən!
Mən də Məhbusəm, vəzifəm şeir yazmaqdır mənim,
Sərvətimdir bircə bu kağəz, qələmdan, ey Vətən!

Əli Məhbusun vətən haqqında yüksək vətəndaşlıq heysiyyəti və qayğısı ilə qələmə aldığı bu şeir onun humanist və vətənsevər bir şair olduğunu təsdiq edir və yaradıcılığında siyasi lirikanın kamil nümunəsi kimi xüsusi yer tutur.

1917-ci il inqilabından sonra Əli Məhbusun yaradıcılığındakı keçmiş feodal-ruhani dünyagörüşünün tənqidinə həsr olunmuş satiralarının mövzusu öz yerini yeni quruluşun – şura hökumətinin tərənnümünü verən mövzularla əvəz olundu. İnqilab zamanı Əli Məhbus cəmiyyət həyatında baş verən inqilabi azadlığı alqışlayır, hətta bu inqilabın başında duran Lenini bir xilaskar rəhbər kimi tərənnüm edirdi:

Dolandı gərdişi-dövran, gəlib bir novbahar oldu,
Oyan, ey qan olan könlüm, keçib leylü nəhar oldu...
Götürdü zülm zəncirin bizə rəhbər olan Lenin,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ədalət bayrağın vurdu, cahanda namdar oldu.
Kəsibdir nəslini yerdən o istibdadi-qəddarın,
Dönübdür təxti tabuta, necə gör tarmar oldu.
Açıldı məclisi-şura, cahan əhli olub azad,
Səadət tapdı məzluman, bir özgə ruzigar oldu.
Hökumət eyləyir indi əkinçi, fə’lə hər yerdə,
Cahanda zülm edənlər gör necə bir xar, zar oldu.
Maarif bağını saldı həqiqi firqəçi yoldaş,
Gögərtdi çox gözəl güllər, özü möhkəm həsar oldu...

1922-ci ilin 10 yanvarında qələmə aldığı «Bu hökumət ələ düşməz» rədifli şeirində də şair yeni yaranan sovet quruluşunu alqışlayır, onu vəsf edib tərifləyirdi. Bu şeirində Əli Məhbusun yeni quruluşa olan rəğbəti və inamı daha qabarıqdır. Lakin əvvəlki şeirindən fərqli olaraq Əli Məhbus bu şeirində yeni qurulan sovet hökumətini insanlara elm, maarif, mədəniyyət və tərəqqi qapısı açan bir quruluş kimi idealizə edir, qəflətdə qalanları oyanmağa çağırırdı:

Min illər ilə beylə ədalət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.
Düşmüş əlinə indi ki, bu neməti-üzma,
Aç gözlərini, bircə oyan sən, dəxi yatma,
Qoy elmə uşaqları, səfil kuçədə qoyma,
Qəflət eləmə, bir də bu fürsət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

Şeirin sonrakı bəndlərində şair keçmişdəki çar üsuli-idarəsi ilə yeni quruluşu qarşılaşdırır və şura hökumətinin elmə və maarifə yol açmasını Leninin adı ilə bağlayırdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əli Məhbusun ədəbi irsi içərisində bu iki şeirdən başqa, yeni quruluşu və Lenini tərənnüm edən əsəri  yoxdur. Lakin bu iki şeirə görə Əli Məhbusu mollanəsrəddinçilərin ədəbi məktəbindən ayırıb onun yaradıcılığında ideya baxımından nöqsan axtarmaq doğru sayılmaz. Çünki o zaman Əli Məhbus da başqa şeir-sənət adamları kimi, çarizmin təqib və təzyiq siyasətinin mürtəce rejimində yaşamış və bunun acısını dadmışdı. Şura hökuməti isə yeni yarananda özünü fəhlə-kəndli hökuməti kimi təqdim edir və çarizmin əsarətində yaşayan yoxsul təbəqələri buna inandırırdı. Əli Məhbus da o zaman başqa sənətkarlar kimi, şura hökumətinin gələcəkdə ruslaşdırma siyasəti ilə imperiya yaradacağı siyasətini duya bilməzdi. Əksinə, başqaları kimi o da sovet quruluşuna cəmiyyətə azadlıq gətirən bir quruluş kimi baxmış və bu inamına görə də ona iki şeir həsr etmişdir. Məhz bunun nəticəsi idi ki, 1917-ci ildə Azərbaycan Milli Demokratik Respublikası yaranan zaman Əli Məhbus bolşevizmə inandığı üçün həmin ildə qələmə aldığı «Lal ol dilim» rədifli şeirini müsavata qarşı yönəltmiş və şeirin başlığında «1917-ci ildə müsavat zamanı müsavatçıların zülmü barəsində» sözlərini yazmışdır. Bu şeirində Əli Məhbus dünyagörüşünün məhdudluğu üzündən ziddiyyətli yolla gedərək Azərbaycan xalqına azadlıq gətirmək arzusu ilə hakimiyyət başına gələn «Müsavat» firqəsini tənqidlə qarşılayırdı:

Bax fələkin dövrünə, bir hələ lal ol, dilim,
Bildigini söyləmə, səbr elə, lal ol, dilim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yoxdu şikayət yeri, sahibi yox millətin,
Kim yetəcək dadına, bir sölə, lal ol, dilim.
Hürriyət adı qoyub, verdilə azadəlik,
Düşdü cahanə bütün zəlzələ, lal ol, dilim.
Gündə çıxır bir kişi təxtə, xilafət edir,
Şəhrə salır gör necə vəlvələ, lal ol, dilim.
İş başına keçdilər hər cürə insanlər,
Qurdula bu millətə min tələ, lal ol, dilim.
Tacir tüccar ilə, xan ilə bəy birləşib,
Salılla xəlqin işin müşkülə, lal ol, dilim.
Sahibi-millət gələr, millətini şad edər,
Onda dönər gözlərin məşələ, lal ol, dilim.

Çox təəssüf ki, Əli Məhbusun sovet hakimiyyətinin sonrakı dövründə qələmə aldığı əsərləri bizə gəlib çatmamışdır. Bəlkə də Əli Məhbus da sonralar C.Məmmədquluzadə, N.Nərimanov kimi bolşevizmin iç üzünü dərk edəcəkdi. Şairin 1917-ci ildən sonra 1933-cü ilə qədər olan yaradıcılığından daha iki şeiri də qalmışdır ki, bunlardan biri 1922-ci ilin 12 mayında qələmə aldığı «Maarif» rədifli şeiri, digəri isə 1929-cu ildə yeni türk (latın) əlifbasına həsr etdiyi «Əlifba» rədifli şeiridir. Görünür, 1920-ci illərdə Azərbaycanda gedən maarifçilik hərəkatı digər şeir-sənət adamları kimi, Əli Məhbusu da sevindirmiş və şair öz yaradıcılığında bu milli tərəqqiyə biganə qalmamışdır. Lakin bu şeirində də Əli Məhbusun ziddiyyətli dünyagörüşü özünü göstərir. Şair «Maarif» rədifli şeirini öz oğluna nəsihətlə başlayır:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyadə, oğul, mənbəi-ürfandı maarif,
Alimlər üçün bağі-gülüstandı maarif.
Gülzari-maarifdə gedib elm ilə təhsil,
Hərçənd əziyyətdi, atam, qədrini sən bil,
Qəflət eləmə, düşməz ələ bir belə mənzil,
Axırda bilərsən necə imkandı maarif,
Alimlər üçün bağі-gülüstandı maarif.
Hər kimsə əgər elm tələb eyləsə getsin,
Açsın o maarif qapısın, şövq ilə girsin.
Bir badə alıb, çeşmeyi-ürfandən içsin,
Görsün nə gözəl şərbəti-ürfandı maarif,
Alimlər üçün bağі- gülüstandı maarif.

Lakin bu şeir də təsdiq edir ki 1922-ci ildə də Əli Məhbus hələ bolşevizmə xalqlara azadlıq, istiqlaliyyət, elm və maarif gətirən bir quruluş kimi inanmışdır. Çünki bu şeirində də maarif qapısının keçmişdə xalqın üzünə bağlı olduğunu deyən şair elm və maarifi təbliğ etməsinə baxmayaraq bunu inqilab rəhbəri Leninin adı ilə bağlayırdı:

Elmin qapısın bağladılar bizlərə yeksər,
Qoymuşdu qaranlıqda bizi müftə yeyənlər,
Çünki yox idi onda bizə bir dənə rəhbər,
Ta bilməz idik biz onu pünhandı maarif,
Alimlər üçün bağі-gülüstandı maarif.
Açdı bu maarif qapısın bizlərə Lenin,
Elan elədi elmi bütün hər yerə Lenin,
Məktəblər açıb fə’lə və rəncbərlərə Lenin,
Dünyadə qoyub, bir böyük ehsandı maarif,
Alimlər üçün bağі-gülüstandı maarif.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1929-cu ildə Azərbaycan maarifçi-demokrat ziyalıları tərəfindən yeni türk (latın) əlifbası yaradılan zaman Əli Məhbus da bu əlifbanı böyük rəğbətlə qarşıladı. Şairin yeni türk əlifbasına mütərəqqi-demokratik münasibəti təsadüfi olmamışdır. Hələ 1920-ci illərdən başlayaraq «Azərbaycanda savadsızlığın aradan qaldırılması uğrunda hərəkat» [1] güclənməyə başlamışdı. Məhz bu məqsədlə 1922-ci ilin 11 iyulunda maarifpərvər zıyalılarımızdan olan Səməd ağa Ağamalı oğlunun sədrliyi ilə Yeni Türk Əlifbası Komitəsi təsis olunur və həmin ilin 21 sentyabrında yeni türk (latın) əlifbası ilə çıxan «Yeni yol» qəzeti bu komitənin orqanı kimi nəşrə başlayır. Bu qəzet latın əlifbası ilə nəşr olunan XX əsrin ilk türk qəzeti idi. [2] Qəzetin vəzifəsi Azərbaycanda və türk dünyasında yeni əlifbanı yaymaq, latın əlifbası ilə Azərbaycan, Şərq və dünya xalqlarının ədəbiyyatını və mədəniyyətini təbliğ etmək idi. 1928-ci ilədək qəzet Yeni Türk Əlifba Komitəsinin mətbu orqanı kimi fəaliyyət göstərmiş, 1929-cu ildən 1939-cu ilədək AK (b) P Bakı

---

[1] Mehriban Paşa qızı Sultanova. «Yeni yol» qəzetində ədəbiyyat məsələləri (Filol.elm. nam. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı). Naxçıvan, 2008, səh.7.

[2] Ətraflı bax: Şimşir Bilal. Türk yazı devrimi. Ankara, «Türk Tarix Qurumu» nəşri, 1922, s.100.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Komitəsinin mətbu orqanı olmuşdur. Bu dövrdə «Yeni yol»un ilk redaktoru C.Məmmədquluzadə olmuşdur. 1924-cü ilin 1 yanvarından isə C.Məmmədquluzadə artıq Yeni Əlifba Komitəsinin təşəbbüsü ilə «Yeni yol» qəzetinin redaksiya heyətinə üzv seçilmiş, lakin 1924-cü ilin 1 mayında ərizə verib redaksiyanın tərkibindən çıxmışdır. Buna səbəb isə qəzetdə gedən bolşevik təmayüllü yazıların C.Məmmədquluzadənin milli məsləkinə zidd olması idi. Lakin Mirzə Cəlil yenə də bu qəzetdə fəal əməkdaşlıq edir, hekayə, məqalə və felyetonlarını yeni latın əlifbası ilə bu qəzetdə çap etdirirdi. Şübhəsiz ki, öz bacısı oğlu C.Məmmədquluzadənin Yeni Əlifba Komitəsində iştirakı və bu komitənin orqanı olan «Yeni yol»dakı mühərrirlik fəaliyyəti Əli Məhbusa məlum idi. Məhz buna görə də Əli Məhbus da bacısı oğlu Mirzə Cəlilin maarifçilik mövqeyində dayanmış və demokratik ziyalılar tərəfindən yaradılmış yeni türk əlifbası haqqında xüsusi şeir yazaraq bu əlifbanın Azərbaycan və türk xalqlarının mədəni tərəqqisindəki əhəmiyyətini alqışlamışdır.

1929-cu ildə «Yeni türk əlifbası» başlığı altında qələmə aldığı bir şeirində Əli Məhbus yeni əlifbanın Azərbaycanın milli maarifində oynadığı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mütərəqqi əhəmiyyətindən söz açır, onun məktəb yaşlı uşaqların milli təhsilində xüsusi rol oynadığını bildirirdi:

Hardan tapılıb oldu nümayan bu əlifba,
Türkün dilini eylədi asan bu əlifba.
Qalmışdıla zəhmətdə bütün körpə uşaqlar,
Ol qədri deyib zir-zəbər, olmuşdula zinhar,
Beş yildə bir ad yazmağa qalmışdıla naçar,
Üç gündə edib onları insan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

Əli Məhbus şeirdə vaxtilə əski əlifbanı dəyişdirmək yolunda böyük cəfakeşliklə mübarizə meydanına atılan M.F.Axundov, M.Şahtaxtılı, M.T.Sidqi kimi Azərbaycan maarifçilərinin yolu ilə gedərək onların mövqeyində dayanır və əski əlifbanın çətinliklərindən, nöqtə və hərəkələrin yazıb-oxuyanları çaşdırmasından söz açırdı. Şair yeni yaradılan türk əlifbasını əski əlifbaya qarşı qoyur və yazırdı:

On yıl oxuyan seçməz idi «kürk»ü «kürək»dən,
Heç bir ayıranmazdı yazıq «kürk»ü «kürək»dən,
Lap təndə gələrdi «ze»yə «zal», «zad» deməkdən,
İndi ayırıbdır «ze»yi «zal»dan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstərdi ki, yazsın birisi «sirkə», «Səmənnaz»,
Söylərdilə: yazmaz niyə bəs «se» ilə qanmaz.
Bilməzdilə ta «sin»i, «se»yi heç kim ayıranmaz,
Əmma ayırıb «se»yi, «sin»i «sad»dan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

Əli Məhbus şeirdə yeni türk əlifbasını yaradıb xalqın milli maarif və mədəniyyətinə yol açan və bu sahədə çalışan Azərbaycan maarifpərvərlərini alqışlayır, onların bu sahədəki fəaliyyətini və zəhmətini təqdir edirdi:

Hər kim bu əlifbanı keçirdibdi həyatə,
Heç dərdü bəla gəlməsin aləmdə o zatə,
Çün oldu səbəb beylə gözəl bir hürufatə,
Qoymaz daha bir elmsiz insan bu əlifba.
Türkün dilini eyləyib asan bu əlifba.

Əski əlifbanın müsəlman aləminin avam və savadsız təbəqələri arasında yazı-pozu işlərində böyük çətinliklərə, hətta yarıtmaz əməllərə səbəb olması o dövrdə C.Məmmədquluzadəni də ciddi düşündürür və böyük maarifpərvər ədib özünün məqalə və felyetonlarında əski əlifbaya olan tənqidi münasibətini bildirirdi. Müəllif belə məqalələrindən birini özünün fəaliyyət göstərdiyi və redaktoru olduğu Əlifba Komitəsinin orqanı olan «Yeni yol» qəzetində çap etdirmişdir. Qəzetin 18 oktyabr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1922-ci il tarixli 6-cı sayında dərc etdirdiyi «Kürk» adlı fulyetonunda müəllif dolayısı ilə əski əlifbanı tənqid edir.

Felyetonda təbrizli sövdəgər Məşədi Qulaməli öz qardaşına məktub yazır ki, qış yaxınlaşır, yaxşı qazanc əldə etmək üçün ucuz qiymətə kürk alıb göndərsin. Lakin Məşədi Qulaməlinin məktubunda «kürk» sözünü «kürək» oxuyan qardaşı ona kürk əvəzinə min dörd yüz kürək alıb göndərir və Məşədi Qulaməlini zərərə salır. Molla Nəsrəddinlə bu barədə danışan məşədi Qulaməli öz qardaşının əski əlifbanı oxuya bilməyib ona ziyan vurması barədə deyir: «Zalım oğlu, zalım, yəqin ki, mənim kağızımda «kürk» sözünü «kürək» oxuyub. Ax, bir aləm mənə ziyan vurdu».[1]

Göründüyü kimi, felyetonda «kürk»ün «kürək» kimi oxunması və əski əlifbanın bu üsulla tənqidi Əli Məhbusun şeirindəki:

On yıl oxuyan seçməz idi «kürk»ü «kürək»dən,
Heç bir ayıranmazdı yazıq «kürk»ü «kürək»dən.

- fikirləri ilə üst-üstə düşür və hətta eyniyyət təşkil edir. Bu isə göstərir ki, Əli Məhbus «Əlifba» şeirini yazarkən dayısı Mirzə Cəlilin «Kürk» felyetonundan

[1] Molla Nəsrəddin. Kürk. «Yeni yol» qəzeti, 18 oktyabr, 1922, №6.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xəbərdar imiş. Çünki həm Mirzə Cəlil, həm də onun dayısı Əli Məhbus əski əlifbanın tənqidində «kürk» və «kürək» sözlərinə istinad etmişlər. Bu isə onların hər ikisinin müəyyən qədər yaradıcılıq əlaqələrindən xəbər verir.

Deyilənlərdən belə bir qənaətə gəlmək olur ki, yoxsulluq üzündən təhsil ala bilməyən Əli Məhbus həyatın acısını çəkdiyi üçün hər zaman ictimai ədalət haqqında düşünmüş, cəmiyyət həyatının ictimai və siyasi ziddiyyətlərini dərindən dərk edə bilməsə də, bacısı oğlu Cəlil Məmmədquluzadədən və onun mollanəsrəddinçi məsləkdaşlarından çox şey əxz etmiş, satirik və ictimai məzmunlu şeirlərində mollanəsrəddinçilərin ədəbi-estetik məramına sadiq qalmışdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏLİ MƏHBUS

# ƏSƏRLƏRİ

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# NAXÇIVANIN MİN SƏKKİZ YÜZ ATMIŞ SƏKKİZMİNCİ YİLDƏN MİN DOQQUZ YÜZ İYİRMİ SƏKKİZİNCİ İLƏ QƏDƏR TARİXİ

## M Ü Q Ə D D İ M Ə

Mən bu tarixi yazmaqda məqsudim nə din və nə dinardan ötür degil. Bəlkə dunyadə gördugüm zalimlərin keçən zamanlarda məzlumlara zülmləri nəzərə alıb özümü bu zəhmətə salmışam. Ey qarean, bilin, mənim atamın-anamın oğul övladı olmadığına

görə bəni çox əziz dutardılar. O səbəbə bəni yay zamanları yaylağa göndərərdilər. Mənim anam kırnalı[1] qızı idi. Kırnada bənim bir qarı nənəm var ıdı. O bəni özilə bərabər hər yil yaylağa aparar idi. O zaman bənim səkkiz yaşım var idi. Bir gün yenə qarı nənəm ilə yaylağa gedirdik. Ləkətağ kəndindən yuxarı bir yaylaq var, o yaylağın adına Kula dərəsi deyirlər. Biz o dərəyə yetişdikdə bən gördüm bir uca təpənin yamacında bir qoca kişi və bir qarı övrət, yanlarında üç nəfər qız ilə əllərində kərkilər təpənin döşünü qazırlar. Bən nənəmdən soruşdum: Nənə,o adamlar o təpəyi nə üçün qazırlar? Nənəm bənə belə cavab verdi və dedi: Bala, onlar orayı qazırlar arpa əksinlər. Bən dedim: Nənə, ağalar bu biçarələrdən də bəhrə alacaqlar? Nənəm dedi: Bəs necə, bala, bu dağlar, bu təpələr

---

[1] Kırna – Naxçıvan MR Culfa rayonunda kənd adıdır.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

həp ağalarındı. Bən nənəmdən bu sözü eşidəndə dedim: Ay nənə, məgər bu ağaların heç insafları yoxdur? Bu biçarələr bu qədər zəhmət ilə arpa əkirlər, ağalar bunların əlindən alırlar? Məgər ağalar bu dağları, bu dərələri özləri qayırıblar? Nənəm dedi: Yox, bala, bu dağlar, bu təpələr, bu kənd, bunlara padşahlar veriblər. Bən dedim: Nə üçün padşahlar bu kəndləri, bu dağları həp bu ağalara veriblər? Məgər ağalar padşahların rəyətləridi? Bu padşahların rəyətləri degillər.

Barı mətləbdən uzaq düşməyək.

Min səkkiz yüz atmış səkkiz tarixdə Naxçıvana çar hökumətin tərəfindən bir nəfər Şəngirey namında bir nəçəlnik gəlmişdi. Özü çox sərvətdar, abadanlıq sevən bir adam idi. O, Naxçıvana gələn zamanlarda Naxçıvan şəhərində iki aylar ilə Naxçıvana su gəlməz idi. Əgər gəlsə idi, onu da xanlar, bəglər aparardılar. Biçarə rəyətlərə verməz

idilər. Məzkur nəçəlnik füqəra cəmaətin halların nəzərə (alıb) Naxçıvan

şəhərinin üstündəki «Nəçəlnik gölü»nü bina elədi. Həman göldən yay zamanı bir dəgirmanlıq su bir aya qədər Naxçıvan şəhərinə çıxardı. Ondan sonra Kükü[1] kəndindəki «Qanlı göl»ü bina elədi. Hal-hazırda abaddır. Məzkurdəki bu göllər yenə də cəmaətə kifayət verməyür. Əhalini təmamən çağırıb dedi: Cəmaət, mənim sizlərə ürəgim çox yanır. O səbəbə ki, görürəm şirin çox gözəl mədaxil verən topraqlarınız var. Böyükdüz, Pircivar, Qumluca kibi. Özünüz də

---

[1] Kükü – Naxçıvanın Şahbuz rayonunda kənd adıdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir çalışqan cəmaətsiz. Fəqət sizlər çalışırsız, müfdəxorlar yeyirlər. Əmma sizlər yay əkinçi, qış dilənçisiz. Buna da bais sizin alimlərinizdi. Sizləri həmişə übudiyyət, mövhumatda saxlayırlar. Sizi yıxırlar məscidlərə və kəlisalərə, sizlərə deyirlər ki, böyüklərnən itaət sizlərə vacibdir, siz gərək mollalara, xanlara, bəglərə itaət edəsiz. Ta sizləri bir elmə, bir sənətə qoymurlar. Sizləri həmişə qaranlıqda saxlayırlar. Bən indi sizləri buraya çağırmaqda məramım belədir: Əgər siz Naxçıvan cəmaəti bənə doğruluq ilə söz verəsiz, bən Bazar çayını Naxçıvana çıxardaram. Bu şərt ilə ki, Naxçıvan çayına gələn suyun hər on gündən bir günü bənim ixtiyarımda olsun. Naxçıvanın və kəndlərin cəmaəti təmamən bir səs ilə razı olublar, şərtnamə yazdılar. Cəmaət hamılıqla qol çəkdilər. Hətta İsmayıl xan, Kəlbəli xan və bir para bəglər də razı olub, qol çəkdilər. Ta bir nəfər zalim, füqəra qanından maya düşmüş zülmkar, əbdalbətn, millət, vətən xaini, bir xətakar, müdbir bəy vardı. O məlun bu işə bais oldu, getdi İsmayıl xana dedi: "Yaranal, əzəmi-şərifinə ərz olsun. Yaranal, sən nə qayırırsan? Bu nə Bazar çayı, bu nə subazlıqdı sən istəyirsən ki? Qaraçuğun həsir toxuyanların, Bulqanın təzək yaxanların, Təzəkəndin qab-qacaq qayıranların, Tunbul ocağının, Qoşadizənin qatıq satanların, Nehrəmin gic-pislərin, Şəkərəbatın qarpız satanların, Xəçəparağın yavşan yığanların, Qahabın tülkü tutanların, Naxçıvanın ələk-qəlbir toxuyanların xan, bəy eləməyin. Əgər Bazar çayı Naxçıvana çıxarsa, təmam bu rəiyyətlər gedərlər Böyükdüzdə, Qumlucada bağ-bostan salarlar. O zaman bizim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çeşmələri kim pul verib alar? Və kim gəlib bizə bağban, bostançı olar? Əgər belə olarsa, onda biz gərək boynumuza torba salaq, gedək dilənməyə. Çünki bizlər çalışmaq başarmarıq. O səbəbə ki, ata-babadan görmüşük onlar işləyib, biz yemişik. Indi durun, bən xudahafiz, bən getdim. Ənna lellahe və ənna əleyhe ra ceun. Cay sındı, su dağıldı.

Tamam atmış yildi o zalım bu zülmü edib, bizlər olmuşuq yay əkinçi, qış dilənçi.

Naxçıvanda olan millətlərin min doqquz yüz beşminci yilə kibi bir-biri ilə necə mehriban yaşamaları!.. Doqquz yüz beşminci yilə kibi Naxçıvan ərməni-müsəlmanı atabir, anabir qardaş kibi yaşardılar. Ərməni müsəlman evində, müsəlman ərməni evində aylar ilə yatardı. Necə bəradəranə yaşardılar. Doqquz qüz beşminci ildə may ayının doqquzunda bir nəfər zalim və pis quburnator gəldi Naxçıvana, may ayının onunda bir put qədər qanfet verdi qaradavoylara və nəçəlniki özü ilə bir götürüb düşdü bazara və qanfetləri payladı bu vəhşi müsəlmanların uşaqlarına[1].

[1] Qeyd: Əli Məhbusun Naxçıvan haqqında yazdığı bu tarix əlyazmada yarımçıq qalmışdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TƏRCÜMEYİ-HAL

Bən öz tərcümeyi-halımı əvvəldən axıra qədər yazıram və hər qəzavü qədəri və gördüklərimi təmamən aşkar yazıram. Biqərəz, əvvəl mənim öz qəzavü qədərim dünyadə belə olubdur: Mənim on yaşım var idi, atam öldü. Mən yetim qaldım. Mənim bir böyük qardaşım və nə əmum və nə dayım yox idi. Əmma özüm çox elmə talib idim. Əmma sahibim yox idi ki, məni elmə, yaxut bir sənətə qoysun. Mən biçarə əlacsız qaldım, getdim gündə yeddi qəpigə bağlarda çayır yığdım, verdim çörəgə, gətdim bir qoca anam ilə iki xırdaca qardaşıma, qardaşlarım ilə yeyirdik. Beş yil bu qərar dolandıq. Altımıncı yil getdim bənnaların yanında palçıq daşıdım. Gündə on iki qəpik pul aldım, gətirib anamı və qardaşlarımı saxladım. Üç ay bənna yanında işlədim, yayda getdim başaqa[1]. Bir ay biçinçilərin dalından buğda yığdım, bir on put arpa və buğda gətirdim. Qışda getdim üç ayı iki manata bir ağaya qulluq elədim. O ağa bir elmli adam idi. Gündüz gedər idi divanxanədə qulluq eylərdi, gecələr gəlib evdə isdolun üstə oturub yazı yazar idi. Bən də ayaq (üstdə) ağanın qabağında durardım. Bir gecə bən cəsarət edib ağama dedim:

«Ağa, bən neçə yil sənə qulluq eləyim ki, mənə də oxumaq, yazmaq ogrədəsən?»

Ağam dönüb bənə belə cavab verdi, dedi:

[1] Başaq-Biçindən sonra yerə tökülən arpa və buğda sünbüllərinin əl ilə yığılması

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

- «A gədə, bən molla degiləm sənə dərs verəm. Sən get öz nökərçiliyinə».

Bən naümid olub, çıxdım eşikdə ağladım.

Qarean, təcrübə hasil eləyin. Uşaqlarınızı elmə göndərin. Elmsiz insan bənzər barsız ağaca. Əgər bənim elmim olsa idi, bən dünyadə çox yaxşı işlər görərdim və yaxşı ixtiralar edərdim. Çünki bən özümdə çox böyük qüvvələr gördüm. Əvvəl budur ki, bən elm, təhsil eləməmişəm. Igirmi beş yaşım vardı, adımı yaza bilməz idim. Öz-özümə müəllim olub oxumaq, yazmaq örgənmişəm və elmsiz ola-ola bir az da şairlik edib zəmanəyə dair bir parə şeirlər də demişəm və əkinçilikdə mütəxəssis olmuşam və bağça-bağlıqda çox böyük təcrübələr hasil eləmişəm. Əmma nə fayda. Elmsizlik bəni daldalarda qoyub. Səd ah!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞEİRLƏRİ

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# T Ə R C Ü M E Y İ - H A L

Mən yazıram dərdimi çün aşikar,
Ta qala məndən sora bir yadigar.
Tərcümeyi-halimə baxsaz əgər,
Onda bilərsiz nə qəzavü qədər
Başıma gəlmiş mənim, ey fə’lələr,
Yadə salarsız məni siz hər nə var,
Ta qala məndən sora bir yadigar.

On yaşım olmuşdu mənim çün təmam,
Gətdi qəza çün belə, öldü atam,
Qaldı iki qardaşınan bir anam,
Olmadı hərgiz bizə bir qəmküsar,
Ta qala məndən sizə bir yadigar.

Öldü atam, çünki mən oldum yetim,
Qaldı ürəkdə o zaman həsrətim,
Olmadı çün elmə gedəm sərvətim,
Oldu günüm qarə mənim hər nə var,
Ta qala məndən sora bir yadigar.

Məktəbə getmək də idi niyyətim,
Çox var idi elmə mənim rəğbətim.
Olmadı axır nə edim, fürsətim,
Axırı oldum belə dərdə düçar,
Ta qala məndən sora bir yadigar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olmadı bir kimsə gələ qeyrətə,
Ta aparıb bircə qoya sənətə,
Mən də gedəm xidmət edəm millətə,
Bəlkə olaydım genə bir pişəkar,
Ta qala məndən sizə bir yadigar.

Sənətim olsaydı əlimdə əgər,
Çəkməz idim beylə qəzavü qədər.
Getməz idi ömür, əzizim, hədər,
Olmaz idim ta belə dünyadə xar,
Ta qala məndən sizə bir yadigar.

Fikr elədim, indi görək neyləyək,
Çarə budur, eldə gedib işləmək,
İşləməsən hardan olur bəs yemək?
Getdim işə, qalmadım bir gün bekar,
Ta qala məndən sizə bir yadigar.

Yeddi qəpik gündə alıb işlədim,
Bağda gedib çayırçılıq eylədim,
Axşam alıb mən o pulu xərclədim,
Gəldim, atam gördüm olub biqərar,
Ta qala məndən sizə bir yadigar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd çörək aldım o gecə, arifan,
Yedik birin hər birimiz lap yavan,
Baxdı mənə, oldu anam şükürxan,
Söylədi, oğlum, olasan rəsdəkar,
Ta qala məndən sizə bir yadigar.

Fə'ləlik oldu o zəman sənətim,
Oldu məaşım mənə düz zəhmətim.
Gündə bir əbbası olub sərvətim,
Qalmadım işdən genə mən yaz-bahar,
Ta qala məndən sizə bir yadigar.

Bir neçə il də elədim bənnalıq,
Sənətim oldu o zəman ustalıq.
Oldu divar üstə işim lovğalıq,
Onda adım oldu mənim ustakar,
Ta qala məndən sizə bir yadigar.

Cümlə məsəldir sizə bu sözlərim,
Düşdü zora, ağrıdı çox gözlərim,
Olmadı ta onda mənim müştərim,
Evdə oturdum o zəman boş-bekar,
Ta qala məndən  sizə bir yadigar.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Müxtəsər, etdim nə qədər mən təlaş,
Bircə doyunca yemədim ağ lavaş.
Hər işə getdimsə, işim oldu yaş,
Görmədim hiç cibdə ola bir dinar,
Ta qala məndən sizə bir yadigar.

Hər işə getdim, işim  oldu fırıx,
Görmədim əgnimdə təzə arxalıx,
Yamaxlı başmaq, papağım cıp-cırıx,
Eylədi başmaqlar ayağım qabar,
Ta qala məndən sizə bir yadigar.

Mən elədim axırı bostançılıq,
Onda işim oldu mənim lap fırıq.
Sənətim oldu bu badımcançılıq,
Kələm, pazı, çoxluca əkdim bibar,
Ta qala məndən sizə bir yadigar.

Elmə gedin siz, ay uşaqlar, aman,
Elm sizi rahət edər hər zaman.
Elmsiz insan ola gər pəhləvan,
Elmli insan onu asan yıxar,
Ta qala məndən sizə bir yadigar.

Elmdi sərvət ki, qutarmaz yəqin,
Sərvətin olsa nə qədər, bil, sənin,
Olmasa elmin, genə boşdur əlin,
Elm, yəqin et, sənə sərvət olar,
Ta qala məndən sizə bir yadigar

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Olmadı elmim, belə oldum zəlil,
Fə’ləlik etdi məni axır əlil.
İndi gedib gör kimə düşdüm dəxil,
Zülm eləyir, bax, mənə ol nabəkar,
Ta qala məndən sizə bir yadigar.

Olmadı elmim, deyirəm müxtəsər,
Ömür, əzizim, belə getdi hədər,
Başıma gəldi bu qəzavü qədər,
Adımı qoydum belə Məhbusi-zar,
Ta qala məndən sizə bir yadigar,
Keçdi bütün bəd mənə bu ruzigar.

**1920-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# 1905-Cİ İL ÜSYANI

Söylə, ilahi, görüm, bircə bu üsyan nədir?
Qavzamısan sən belə söhbəti-iman nədir?
Bir yaradıbsan əgər Adəmi, Həvvanı sən,
Ərməni, gürcü, urus, Serbiya, German nədir?
Adəmi xəlq eylədin, bizlərə olsun ata,
Söylə görək, ay kişi, bəs hələ şeytan nədir?
Adını adil qoyub, zalimi xəlq eylədin,
Bəndələrindən ötür bir belə üdvan nədir?
Gərçi o, zalimdi, bəs sən niyə xəlq etmisən?
Bu ta ki, zalim degil, ta ona böhtan nədir?
Indi ki, xəlq etmisən, dut yaxasından onun,
Söylə ki, ey bihəya, bir belə tüğyan nədir?
Sən niyə insanların içrə salırsan fəsad?
Gündə tökürsən yerə bir bu qədər qan nədir?
Hökm elə Əzrailə, alsın onun canını,
Babi-ədalətdə bu nakəsü nadan nədir?
Bəlkə qutarsınla bu bəndələrin zülmdən,
Möminə,möminlərə bir belə düşman nədir?
Görməyib ol zalimi kimsə bu dünyadə heç,
Var adı, yoxdur özü, cismdəki can nədir?
Vardı əgər, sən onu bizlərə ver bir nişan,
Yoxdu deyir mollalar, bəs belə yalan nədir?
Yəni sözündən çıxır, vardı bunun hikməti,
Hikmətə yol ver bizə, ta görək ondan nədir.
Hikmətə yol verməsən, yoxdu məkanın sənin,
Adil olan kimsəyə mənzili-pünhan nədir?
Bir neçə milyon evin vardı sənin zahirən,
Birində yoxsan özün, boş, quru viran nədir?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Var hər evində nəğət[1] bir qara mənbər,həsir,
Üstü dolu bit, birə, cürbəcür heyvan nədir?
Evlərini boşluyub, harda qalırsan özün?
Mollalar eylübdülər onları dükkan, nədir?
Orda satırlar belə göz yaşına cənnəti,
Şor su nədir, bax görək, rövzeyi-rizvan nədir?
Ağlayana min nəfər huri verir şeyx Cəfər,
Pullarını nəqd alır, nisyə o qılman nədir?
Onları xəlq etmisən beylə gözəl çox ucuz,
Keçəl Sənəm, Kor Pəri, Pinti Bəyimcan nədir?
Kim baxacaq Zeynəbə, görsə o qılmanları?
Söyləyəcək Kar Səfər: Fatma-Tükəzban nədir?
Hamını bir gözdə sən xəlq eləyübsən əgər,
Huri və qıman nədir, Qotur Xanimcan nədir?
Hammı əgər birdi, ta, olmuya yoxsul gərək,
Tacirü əyan nədir, bu lütü üryan nədir?
Bir kişiyə vermisən yeddi oğul, yeddi qız,
Yox çörəgi, paltarı, bax, belə nöqsan nədir?
Bir kişiyə vermisən sərvəti Qarun[2] kibi,
Verməmisən sən ona bir dənə oğlan, nədir?
Beylə də məlum olur, alçaq, uca var yəqin,
Alçaq, uca olmasa, in nədi bəs, an nədir?
Bir yaradıbsan bizi sən ki, binadən əgər,
Şah nədi, sultan nədir, fələvü kənkan nədir?
Bəg nədi bəs, xan nədir, dağda o çoban nədir?
Gün qabağında yanan çöldəki dehqan nədir?
Sən yaradıbsan ola şad bu Məhbus əgər,
Oldu bu dünya ona axırı zindan nədir?

**1905-ci il**

[1] Nəğət – nə qədər
[2] Qarun-Tarixdə cox varlı – dövlətli olmuşdur

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# RUS ÇARI NİKOLAYA

Ata övladına zülm eyləməz, ey zalimü qəddar,
Sən eylədin axır nə üçün bir belə, bədkar?
Verdin əlinə hökmü qoburnat xəbisin,
Saldın yola, gəldi bura iblis, xətakar.
Burda aparıb eylədilər çün ona hörmət,
Evlərdə qonaq saxladılar üç gecə xanlar.
Dördümcü günü çıxdı o, bazari-fəsadə,
Qan tökməgə əmr eylədi ol zalimi-xunxar.
Fitvanı verib, qavzadı üsyanını, qaçdı,
Yeksər qatışıb bir-birinə millәti-biar.
Baxdı sözünə çünki onun cahilü nadan,
Bir vəqt nə gördüm ki, axır sel kibi qanlar.
Sən hökm eləmişdin o zinakar, ləinə,
Xəlqin içinə gətdi salıb bir belə azar.
Əkdi bu bəla toxmunu Qəfqasə sərasər,
Hər yerdə qırır bir-birini pirü cəvanlar.
İnsan nə üçün öldürür insanı cəhanda?
Bir başə salın siz məni, ey yaxşı qananlar.
Adəm babamızdır bizim aləmdə əgər ki,
Hardan görəsən gəldi urus, erməni, tatar?
Adəm iki, Həvva iki əvvəldən olaydı,
Mən də sölüyərdim ki, yəqin məzhəbü din var.
Bir Adəm olub, bir də ki, Həvva ona yoldaş,
Doğdu, törədi xəlq deyər bizləri onlar.
Kim bəs ayrub, erməni kor elədi bizləri axır,
Məlum olur, molla-keşişlərdi səbəbkar.
Dünya düzələr cümlə bu insan ola qardaş,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qurtlar qoyuna yoldaş olar, olmasa şahlar.
Çün örgənib onlar yeməgə, gəzməgə rahət,
Razı olu hardan bu işə Molla Məmətyar?
Sən bəsdi, dəxi fikr eləmə bır belə, Məhbus,
Qoymaz düzələ iş, nə qədər molla, keşiş var.

**1905-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 1905-Cİ İLDƏ MAY AYININ 12-DƏ ÇAR HÖKUMƏTİNİN ZÜLMKAR GENERAL-QOBURNATININ ÜSYANI BARƏDƏ

Gəldin, nə üçün qavzadın üsyanı, qoburnat?
Saldın nə səbəbdən bura dəvanı, qoburnat?
Çıxdın bazara, qanfet alıb payladın əvvəl,
Çün şad elədin sən susub, hər yanı, qoburnat.
Girdin şəhərə, dalda nəçəlnik və prisdav,
Yığdın başına bir sürü nadanı, qoburnat.
Meydanda durub hökm elədin pirü cəvanə,
Nahəq yerə tökdün bu qədər qanı, qoburnat.
Oldun niyə bais bu qədər qanə, a zalim?
Zülmün bürüyüb ölkədə hər yanı, qoburnat.
Səpdin bu yola toxmunu dünyadə sərasər,
Vermişdi sənə kim belə fitvanı, qoburnat?
Yoxsa, Niqalaydan sənə olmuşdu bu fərman,
Sən qırdırasan bir velə insanı, qoburnat?
İnsanlar ölüb, qaldı yetim körpə uşaqlar,
Elan elədin sən sora talanı, qoburnat.
Baxdın sözünə sən o cəngkar ləinin,
Viran elədin aləmi-iskanı, qoburnat.
İnsafı atıb, xatirə vicdanını satdın,
Verdin oduna sən neçə min canı, qoburnat.
Nahəq yerə iblisə cəmaət şər atırlar,
Kim, söylə, görüb sən kimi şeytanı, qoburnat?
Məhbus görüb zülmünü, od dutdu, alışdı,
Tarixini yazdı belə pünhani, qoburnat.

**1905-ci il, 12 may**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İNGİLİS

Bir usan, ey bihəya, qırdırma bu insanları,
Toplar altında dağıtma bu gül tək canları,
Qoyma dünyadə oğulsuz binəva piranları,
Sən olarsan axırda dərdə giriftar, ingilis!
Qansoran, zalım, cahanda mərdimazar, ingilis!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÜRƏYİM QAN OLDU

Mən bu insanlara baxdım, işim əfğan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.
Durub açdım gözümü, seyr elədim dünyanı,
Kuh-səhranı dolandım belə mən, hər yanı.
Bivəfa gördüm, əzizan, o qədər insanı,
Bu səbəbdən belə dünya mənə zindan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Olmuşam indi odur ki, belə bir sərsəri mən,
Almışam çün əlimə beylə qələm-dəftəri mən,
Yazıram dəftərə hər dərdi, müsibətləri mən,
Məni çün dərdə salan bu dili-viran oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Gördüm insanda belə mən o qədər cövrü cəfa,
Görmədim bircə nəfər ta ki, sözü düzgün ola,
Hər kimə dost dedim, gördü mənə zülm rəva,
Üzümə güldü, gedib daldada düşman oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Yedi hər kim çörəgim, dutdu qıçımdan, yixdı,
Getdi, hər yerdə oturdu, mənə bədxah oldu,
Onu bildim ki, belə bircə düz insan yoxdu,
Çün əyan oldu mənə, bu belə hər an oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bircə oğlum var, ona hər nə dedim, anlamadı,
Sözümün cövhərini başda yığıb saxlamadı,
Çünki bədbəxtdi bu, elmə kəmər bağlamadı,
Bu nəsihətlər ona cümləsi  hədyan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Saxladım üç yetim on yeddicə yil arı, təmiz,
Onların mən çörəgin eylədim hər gündə ləziz,
Öz balamdan oları mən genə dutdum çox əziz,
Gəldi onlar da mənə axırı üdvan oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Mən özüm də deyirəm: xeyrü şərim anlamadım,
Dağıdıb sərvətimi, əldə quruş saxlamadım,
Oturub öz-özümü bircə belə danlamadım,
Məni bu dərdə salan sərvəti-saman oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Bir baxın bəxtimə siz, ey üqəla insanlar,
Etməyin bir də məzəmmət məni,ey ürfanlar,
Başıma gətdi nələr bircə görün nadanlar,
Mənzilim gəldi mənim axırı viran oldu,
O qədər fikr elədim, ta ürəgim qan oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oturub guşeyi-viranədə Məhbus təkin,
Çəkirəm mən genə bu fə'lələrin dudi-ğəmin,
Çün özüm tək görürəm eldə olan əbləhlərin,
Biri küngizçi[1], həsirçi, biri kənkan oldu,
Bunu da fikr elədim, ta ürəgim qan oldu.

**1914-cü il, 5 yanvar**

[1] Kəngiz-Kökü yanacaq kimi istifadə olunan bitki növüdür. Bu bitkinin yayda yığıb köklərini qurudar və qışda kömür əvəzi yanacaq kimi istifadə edərmişlər. Bitkini yığıb toplayana isə kəngizçi deyərdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# VƏTƏN

Hər baxanda mən sənə, bağrım olur qan, eyVətən,
Olmusan, ayə, neçün sən belə viran, ey Vətən?!
Qalmayıb bir yer səlamət, hər yerin viranədir,
Od vurublar sərbəsər, eyliblər suzan, ey Vətən!
Yoxdu bir abad yerin, səndə görübən şad olam,
Qəsri-alilər olub xak ilə yeksan, ey Vətən!
Dönmüsən sən bir xərabəzarə, yox səndən nişan,
Yoxsa səndə olmayıb heç bircə insan, ey Vətən?!
Bağların bənzərdi bir səhni-gülüstanə sənin,
Əsdi hardan bəs xəzan, soldu gülüstan, ey Vətən!
Qaçdı bülbüllər, dağıldı, etdilər səndən fərar,
Qaldı bisahib, olub güllər də xəndan, ey Vətən!
Dəstə-dəstə bağlarında seyr edirdi hurilər,
Görmürəm bircə nəfər mən səndə qılman, ey Vətən!
Görməyə yoxdur gözüm hərgiz səni bu hal ilə,
Halətin eylər məni baxdıqca giryan, ey Vətən!
Yok ənisü munisim, bayquşlara tay olmuşam,
Şükr edəndə bən olur halım pərişan, ey Vətən.
Qorxuram bən, fikirdən sevda gələ bu başıma,
Od tuta sən tək, ola bir mülki-suzan, ey Vətən.
Bir xəyalım var, gedim səndən qiyabən gərd olam,
Məskənim olsun dəxi kuhü biyaban, ey Vətən.
Ayrılım səndən necə, yetmiş beş il ömr etmişəm?
Öldürər getsəm bəni çöllərdə hicran, ey Vətən.
Ya qalım səndə, necə ömr eyləyim bundan sora?
Bağlayıb qollarımı zülm ilə üdvan, ey Vətən.
Olmuşam aciz belə, eylim şikayət mən kimə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Var nə hakim, nə hökumət, yoxdur divan, ey Vətən!
Bir kişi bir gün çıxır taxta, biri taxtdan düşür,
Bilmirəm bunlar neçin oynallar «xan-xan», ey Vətən?
Yoxdu bu millətdə yoxsa bir nəfər sahibkamal?
Bir deyə: axır nədir bu cəhlü üsyan, ey Vətən?
Biz əgər indi birik, ayə, nədir bu iğtişaş?
Olmuyaq ayrı, olaq bizlər bir insan, ey Vətən!
Olmuya bağban sözü, çayçı, çörəkçi, rəncbər,
Bir ola bostançı, çərçi, cümlə dehqan, ey Vətən!
Can deyə daim gərək ülüvvü ədna bir-birə,
Ta olaq bizlər bütün, bir cismü bir can, ey Vətən!
Saxlayaq əlsiz-ayaqsız, binəva bikəsləri,
Qalmasınlar ac-susuz, çöllərdə nalan, ey Vətən!
Mən də Məhbusəm, vəzifəm şeir yazmaqdır mənim,
Sərvətimdir bircə bu kağəz, qələmdan, ey Vətən!

**1919-cu il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# 1917-Cİ İLDƏ MÜSAVAT ZAMANI MÜSAVATÇILARIN ZÜLMÜ BARƏSİNDƏ[1]

Bax fələkin dövrünə bir, hələ lal ol dilim,
Bildigini söyləmə, səbr elə, lal ol, dilim.
Gör necə dövr eyləyir, sən də müdara elə,
Dost ilə düşmən səni döysələ, lal ol, dilim.
Dinmə, danışma, əyə, sən laü nəəm söyləmə,
Etmə şikayət, dayan, söysələ, lal ol dilim.
Yoxdu şikayət yeri, sahibi yox millətin,
Kim yetəcək dadına, bir sölə, lal ol dilim.
Hürriyyət adı qoyub, verdilə azadəlik,
Düşdü cəhanə bütün zəlzələ, lal ol dilim.
Gündə çıxır bir kişi təxtə, xilafət edir,
Şəhrə salır gör necə vəlvələ, lal ol, dilim.
İş başına keçdilər hər cürə insanlər,
Qurdula bu millətə min tələ, lal ol, dilim.
Tacir tüccar ilə, xan ilə bəg birləşib,
Salılla xəlqin işin müşkülə, lal ol, dilim.
Molla-keşişlər keçib sədrədə əgləşdilər,
Ortalığa atdıla məsələ, lal ol, dilim.
Söylədilər: biz gərək indi hamı bir olaq,
Olmuya xan-bəg sözü, bax, belə lal ol, dilim.
Bağbanı, bostançını öz işinə göndərək,
Ta bu cəmaət bütün dincələ, lal ol, dilim.
Sədr qoyaq məclisə bir dənə şəxsi-nəcib,
İşlərimiz bəlkə bir düz gələ, lal ol, dilim.
Bax, sənə molla deyir: xan-bəgə hörmət elə,

[1] Qeyd: Əli Məhbus şeirin başlığını bu şəkildə vermişdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hökmi-şəriətdi çün, fikr elə, lal ol, dilim.
Çıxsa sözündən əgər bircə nəfər mollanın,
Boynuna oddan keçər silsilə, lal ol, dilim.
Molladı rəhbər sənə, gör necə yol göstərir,
Get o yola, az onu həcv elə, lal ol, dilim.
Mollaya pul verginən, cənnəti versin sənə,
Huri və qılman ilən keyf elə, lal ol, dilim.
Cibdə pulun var əgər, keç yuxarı məclisə,
Yoxdu pulun, xəlqi az dəng elə, lal ol, dilim.
Pul açanı açmuyur top-tüfəngü təbər,
Yoxdu, qələt eyləmə, çıx çölə, lal ol, dilim.
İndi bir əyyamdır, hər gədə bir şah olur,
Xəlqi salır gör necə əngələ, lal ol, dilim.
Bu fələki-hiyləgər hiç kəsə etməz vəfa,
Üstünə xəncər əgər çəksələ, lal ol, dilim.
Çoxları soltan edib, təxtə çıxardıbdı bu,
Axırı təxdən salıb zülmlə, lal ol, dilim.
Yadə sal İsgəndəri, Nuhu, Süleymanı sən,
Varmı olardan əsər, fikr elə, lal ol, dilim.
Hardadı Zal oğlu bəs Rüstəm, o Söhrab hanı?
Bir quru addır qoyub getdilə, lal ol, dilim.
Başına bir çarə qıl, dinmə, danışma əbəs,
Bəlkə sənin sahibin bir gələ, lal ol, dilim.
Gələndə ol sahibin söylə, danış, sən də gəl,
Barmağını düşmənə silkələ, lal ol, dilim.
Sahibi-millət gələr, millətini şad edər,
Onda dönər gözlərin məşələ, lal ol, dilim.
Görsələ düşmənləri kor olacaqlar təmam,
Çün düşəcəklər bütün cəncələ, lal ol, dilim.
İndi ki, Məhbussən, yazma ğazit, rahət ol,
Fürsət olanda qələm al ələ, lal ol, dilim.

**1917-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜLKƏDARIN DİLİNDƏN

Biz istəyirik bu vətəni zir-zəbər olsun,
İranli kibi əhli-vətən dərbədər olsun.
Şəxsi doyuraq qarnımızı misl bəhayim,
Övladi-vətən ac qalacaq sərbəsər, olsun.
Geysin bizim arvadlarımız cümləsi qastum,
Çıxsın canı çılpaq qalanın, hər bəşər olsun.
Gəzsin, nə qədər var canı, üryan, canı çıxsın,
Yatsın gecə bir guşədə, dursun, səhər olsun.
Qar yağsa, yağış yağsa, ona heç əsər etməz,
Örgənmiş adamdır, yatacaq, hər təhər olsun.
Aclıqda da var tabı, bir yil ac qala, ölməz,
Topraq da yeyər, daş da yeyər, ta zəhər olsun.
İsti-soyuğu, aclığı, çılpaqlığı qanmaz,
Tab eyləyəcək, hər nə qəzavü qədər olsun.
Dünyayə gəlib çünki özün fə'lə görübdür,
Çöllərdə gedib işləyəcək, gər nələr olsun.
Heç istəməz olsun özü öz hakimi əsla,
İstər ki, bunun hakimi, hər kim gələr, olsun.
Çünki babası başın açıb xan-bəgə daim,
İndi bu da istər onu irsi-pedər olsun.
Baş əyməsə, ağrır başı, İranə yavuqdur,
İnsanda gərək bir dənə çeşmi-bəsər olsun.
Açsın gözünü, qonşusuna bir nəzər etsin,
Hər bir felindən də onun baxəbər olsun.
Görsün necə onlar dağılıb çöllərə üryan,
Onlar kibi yuxlaya gərək, müxtəsər olsun.
Yüzdən biri iranlının ölməz vətənində,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hacı, məşədi, molla, seyid, rəncbər olsun.
Yorğanı çəkər başına, yuxlar, oli rahət,
Mənzil-bucağı, tavla, dəgirman gəzər olsun.
Qoy əhli-vətən cümlə qaranlıqda dolansın,
Elmə, ədəbə qaçmasın el, bixəbər olsun.
Baxsın buların halinə Məhbus, oda yansın,
Dursun o qədər fikr eləsin, didətər olsun.

**1906-1907-ci illər**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏSSƏBR MÜFTƏHİL FƏRƏC[1]

Səbr et, əkinçi, binəva, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.
Sən fə’ləsən, heç qəm yemə, dünyadə rahət olmassan,
Yay-qış peşəndir ışləmək, bir saət işdən qalmassan,
Sən ac çəkərsən zəhməti, xan-bəyləri ac qoymassan,
Sən işlə, xan sürsün səfa, əssəbr miftəhil fərəc,
Çox ağlayib etmə nəva, əssəbr miftəhil fərəc.

Kəndçi gərək əksin əkin, dünyadə rahət olmasın,
Buğdanı yığsın anbara, əhli-əyalı görməsin,
Övladını ac saxlasın, buğdanı xan-bəylər yesin,
Kəndçi gərək çəksin cəfa, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Kəndçi gərək üryan gəzə, heç tazə paltar geyməyə,
Xüms zəkatın vermiş ola, dinmədən verməyə,
Arpa, darı, çovdar yeyə, buğda lavaşın görməyə,
Molla gərək olsun riza, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.
Xəlq eləyib xaliq səni çöllərdə zəhmət çəkməgə,
Günlər qabağında yanıb, şamü səhər əlləşməgə,
Bikar olanda xanların paltar-palazın silkməgə,
Beylə yazıb Molla Rza: Əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Hökmi-şəriət belədir, çixsan sözündən mollanın,

---

[1] Əssəbr müftəhil fərəc – Səadətin açarı səbrdədir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xanə itaət etməsən, düşdün gözündən mollanın,
Xandır xudavəndin sənin, get sor özündən mollanın,
Sən bəndəsən çünki xana, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Cənnət sənindir sərbəsər, etsən itaət mollaya,
Xüms zəkatı büsbütün versən, ədalət mollaya,
Oldun, yəqin bil, aşina ruzi-qiyamət mollaya,
Orda kömək eylər sənə, əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Məhbus, kafər olma sən, qırma itaət zəncirin,
Çıxma dinindən, boynuna sal bu "ədalət zəncirin",
Dutsun əlində molla qoy ta bə qiyamət zəncirin,
Təqlid elə sən də ona əssəbr miftəhil fərəc,
Çox ağlayıb etmə nəva, əssəbr miftəhil fərəc.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÖVHUMATLA MÜBARİZƏ

Yandırıb yaxdı cahanda vəhşiyyət bica bizi,
Qoymub bir şad olaq bu ah, vaveyla bizi.
Aldadıb yıxdı bizi məscidlərə fəssadlər,
Ağladıb hər gündə söydü bir neçə molla bizi.
Minbər üstündə oturdu, mövhumatın da deyib,
Saxladı ta sübhə tək ol bihəyayə əhya bizi.
Satdılar huriləri göz yaşına bin-bin bizə,
Daima kefləndirib bu söhbəti-hüda bizi.
Başə vurduq, göz yaşın rökdük həsirin üstünə,
Kəsbdən qoydu təmamən bisəmər sövda bizi.
Bilmədik ta şor suya verməzlə huri qizların,
Qanmadıq ki, vəhşiyyətdə saxlayıb ağa bizi.
Hökm edirdi: “baş yarın, cənnət sizindi sərbəsər,”
Qonşular gülsün görəndə qan ilə həmra bizi.
Bu qaranlıqda bizi qoymuşdu Molla Pəhləvan,
Eyləyib heyvan, necə minmişdi ol supa bizi.
Xabi-qəflətdə yatırdıb, söylədi lay-lay bizə,
Qoymub bir göz açaq dünyadə heç əsla bizi.
Yeddi sinndə qızı verdik ərə çox zülm ilə,
Gör necə etmişdilər bir vəhşiyi-səhra bizi.
Kur-kuranə yaşadıq mövhymat ilə təmam,
Bu cəhalətdən qutardı bir nəfər «dana» bizi.
İndi göz açdıq, qutardıq hiyləsindən onların,
Lap yəqin etdik, olar etmişdilər ə’ma bizi.
Mən də Məhbusəm ki, qırdım mövhumatın zəncirin,
Çü yəqin etdim, bular etmişdilər rüsva bizi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# B E H İ Ş T

Çəkdilər qürə, düşübsən bu müsəlmanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.
Verdilər mollalara çünki behiştin haçarın,
Doğdu ulduzları hər yerdə təmamən oların,
Satdılar onlar da möminə Ənsar[1] almaların,
Oldu Təbriz bazarı alimə, ürfanə behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Verdilər üç bağını bircə qoyun bozbaşına,
Tökdülər gör necə kül bircə bu dinin başına,
Huri-qılmanları da satdıla bir göz yaşına,
Oldun əttar dükanı Molla Cəfər xanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Ağladıblar bu müsəlmanları hər yerdə bular,
Məscidü mədrəsədə, çarsuda, dükkanda bular,
Bağda, bostanda, bütün hücrədə, eyvanda bular,
Etdilər kuçələri cümlə ağa, xanə behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Verdilər baş yarana bir neçə qılman xəbəri,
Etdilər dəstəbaşı oğru, piyan Al Cəfəri,
Dökdürüb qanları, gəzdirdilə hər məhləlri,
Oğrular aldı səni bircə avuc qanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

---

[1] Ənsar- Yer adıdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səni ol mömin alar, qılsa cəmaət namazı,
Gecə-gündüz özünə eyləsə adət namazı,
Yesə xəlqin malını, qılsa bir hacət namazı,
Səni vacib eləyir molla o insanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Beş yüz il ömr eləsə bir kişi dünyadə təmam,
Yedigi, içdigi, hər bir şeyi də olsa həram,
Bu duanı oxuya bir dəfə ömründə təmam,
Bu duadır  verə pul Molla Süleymanə, behişt.
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Verdilər çünki səni Molla Kərim xan əlinə,
O verənməz səni, bil, elmli insan əlinə,
Səni ancaq verər o, fə'ləvü kənkan əlinə,
Çünki xəlq eyləyib Allah səni kənkanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Mollalar verməyəcək özgə bir insanə səni,
Sata bilməzlə, səbəb var, belə insanə səni,
Necə satsınla görək, söylə, bir insanə səni,
Elm, sənət sahibi Engelsə, Germanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Çün inanmazla olar mollaların hiyləsinə,
Fikr verməzlə belə huri və qılman bəsinə,
Çünki onlar gedəcək hər biri öz pişəsinə,
Sahib olsunla bütün hər yerə, hər yanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bizə təlim verib Molla Cəlil ağlamağı,
Göz yaşın tökməgi, hər gündə əza saxlamağı,
Bir sənin xatirinə ağzımızı yağlamağı,
Çünki təqlid elədik Molla Bədəlxanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Biri qalxır göyə elmin gücünə, quş tək uçur,
Yer ilə göy arasında gecə-gündüz dolanır,
Millətin rahət edir, yaxşılığa ad qazanır,
Bircə düşmür yadına sən kimi viranə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Bizə də yaxşı bir elm örgədib alimlərimiz,
Ağlayaq, ta o qədər, kor ola bu gözlərimiz,
Bəlkə cənnətdə bizi tez sevə hurilərimiz,
Yaxşı hörmət edələr kor-şilə, mərdanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Səndə yer verməyəcəklər ayrısının özünə,
Kim baxar mollanı qoymuş, elə alim sözünə,
Çün salıb elmi, bütün sənəti dünya üzünə,
O səbəbdəndi olubdur sənə biganə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.
Heyif, bu sözlərimi həcvə hesab eyləyəcək,
Mən Məhbusə o molla belə lənət edəcək,
Sonda bostan dəyəsincə mənə yer verməyəcək,
Bir təmaşa eləyəm huri və qılmanə, behişt,
Mən də, ey kaş, olaydım sənə həmxanə, behişt.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YIĞIŞIBLAR ORA BİR ÇOXLU HİMARÜL-ÜLƏMA

Nəcəfə qoydula ad eylə ki, darül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.
Orda iclas eləyib, millətə gün ağladılar,
Mövhumat ilə dutub gözlərini bağladılar.
Bu qaranlıqda o biçarələri saxladılar,
Çıxdı ordan bulara beylə qərarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Qətnamə çıxarıblar ki, əza saxlayalar,
Gecə-gündüz vuralar başlarına ağlayalar,
Sairi millətlərə heç bir göz açıb baxmayalar,
Belə məhkum eləyiblər o çekarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Elm təhsil eləyib açdıla xəlqin gözünü,
Gətirib ortalığa saldıla sünni sözünü,
Baxdı millət olara, qırdı bütün öz-özünü,
Belə kor millətinən doldu kənarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Bir kitab əhli edən bizləri peyğəmbər idi,
Özü də onda bizim cümləmizə rəhbər idi.
Ömər, Osman, Əbubəkr, Əli sözbir idi,
Bizi onlardan ayırdı bu niqarül-üləma,
Yığışıblar ora bir çoxly himarül-üləma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir kitab əhli qırıb bir-birini, tökdülə qan,
Çün bu fitvanı verib molla filan, ibn filan,
«Öldürün sünniləri, şiə, budur hökmi-Quran,»
Bu fəsadı törədib eylə şüarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Bir kitab əhli olub bir-birinin üdvanı,
Çəkdi İran qoşunun, getdi, qırıb Türkmanı,
Bir tərəfdən də o Əfqan dağıdıb İranı,
Belə millət dağılıb oldu beharül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Biri qırx il oxuyub qanmadı zirü zəbəri,
Çağırıb başına yığdı bu əvam şiələri,
Ayırıb bunları, düşman eləyib sünniləri,
O səbəb oldu, qızıb beylə bazarül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Etdilər bizləri çün sahibi-sənət üləma,
Örgədiblər nə gözəl elmi-ibadət üləma,
Açdılar özlərinə babi-ticarət üləma,
Cümlə dünyadə çəkildi belə carül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Belə məlum olunur çün budu dünyanın işi,
Bizə rəhbər eləyib ğazini, molla-keşişi,
Sala onlar da cəhanə bu qədər keşməkeşi,
Müfdə gəlsin evinə leylü nəharül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Adəm övladını bunlar ayırıb, etdilə xar,
Birisi ərməni oldu, birisi gürcü, tatar,
Oldu düşman hamısı bir-birinə hər nə ki, var,
Yandırıb din oduna bunları narül-üləma,
Yığışıblar ora bir coxlu himarül-üləma.

Çünki düşmandıla hər ölkədə insanə bular,
Gördülər qandırıram sözləri nadanə bular,
Məni Məhbus eləyib  saldıla zindanə bular,
Çün deyərdim ki, bütün hiylədi karül-üləma,
Yığışıblar ora bir çoxlu himarül-üləma.

**1907-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MOLLALARIN DÜNYADAN ŞİKAYƏTİ

Səd ah! Necə getdi o dövran əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.
Məscidlər idi bizlərə bir təxti-xilafət,
Eylərdilə məsciddə bizə qul tək itaət,
Səf-səf düzülərdi qabağa köhnə cəmaət,
Mənbərdə öpərdi bu müsəlman əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Günlər keçirirdik nə gözəl əski zəmanda,
Ləzzət aparırdıq bütün asudə cəhanda,
Faytunda gedirdik bizi mehman aparanda,
Aldı onu bu gərdişi-dövran əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Hər məclisə gircək bizə eylərdilə hörmət,
Saxlardı əziz bizləri hər evdə cəmaət,
Qalın döşəgin üstə olardıq belə rahət,
Düşməzdi yerə qəhvəvü qəlyan əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Məsciddə edərdik gecə-gündüz biz ibadət,
Çox-çox qazanardı bizə sərvət bu itaət,
Axırda duyublar o içi fitnə cəmaət,
Getdi dəxi ol sərvəti-pünhan əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mömin kişilər getdi bütün, qaldıla bic-mic,
Tanımırla nədir din ilə imanı bular hiç,
İndi dolaşır din ilə imanə də hər gic,
Az qaldı gedə, ay kişi, iman əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Möminlərinən biz necə söhbətlər edərdik,
Bir yerdə durub məclisi-ehsanə gedərdik,
Ehsanda gözəl, yağlı pulovlar da yeyərdik,
Dünya dolanıb, getdi o ehsan əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

Allahı danıb, söhbəti-şuranı salıblar,
Allah evini zülm ilə bizlərdən alıblar,
Məhbus kibi bizləri bu həbsə salıblar,
Dutmur dəxi hiç bircə müsəlman əlimizdən,
Xan-bəglər olan məclisi-əyan əlimizdən.

**1917-ci il, oktyabr**

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DƏLLƏK QAFARIN TƏBABƏTİ MÜNASİBƏTİLƏ

Usta Qafar, əlac eylə, öldüri bu yaman məni,
Salıbdı gör nə halətə bəlayi-nagahan məni.
Gətir dava qoy üstünə, bircə qutar, aman, məni,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Deyirlə sən həkimsən, şəhərdə vardı şöhrətin,
Çıxıb adın bu ölkədə, vardı əcəb təbabətin,
Ülgüc əlində durmusan, Şimrə də var şəbahətin,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Bu ülgücün yarəsinə bax, gör özün, çoban dözər?
Pələng, şir, kərgədən, ayı, camış, qaban dözər?
Bu badkeşin də zərbinə, a bihəya, ki, can dözər?
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Səni görən kibi mənim qalmadı tabü taqətim,
Surətinə baxanda lap əşədd olub müsibətim,
Badkeşinə düşüb gözüm, ziyadə oldu zəhmətim,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən də bəgənmişəm sənin elmini, həm kəmalını,
Yəhudi görsə sənin o mən görən cəmalını,
Qalsın o sonku dəlləgə hər nə ki, vardı malını,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Pul almağa həkimsən, bu elmə yoxdu diqqətin,
Ölər naxoş quzuların, sənin ki, yoxdu zəhmətin,
Al pulunu, cəhənnəm ol, qatili olma millətin,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Kim sənə ad qoyub, sölə, kim səni eyləyüb həkim?
Bu elmi örgədib sənə, ağzına bunca tək ..... [1]
Xəlqi əcəlsiz öldürən sənin bu elmini .....
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Harda gedib elm oxuyub, harda veribsən imtəhan,
Keçəl başın ustasısan, o elmə göndərib atan,
Uşaqların da kəs çokun[2], eybi nədir ki, pul qazan,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

---

[1] Qeyd: Şair 2-ci və 3-cü misralarda parnoqrafik ifadələr işlədib.
[2] Çokun – «Çoxun» deməkdir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstəmirəm görəm səni, itil gözümdən, ol kənar,
Kənarə getməsən əgər, indi mənim canım çıxar,
Ülgüc əlində durma, get, açıl başımdan, ay Qafar,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Bu on manatı al, məni doğrama sən soğan kibi,
Gözlərini bərəltmə çox üstümə ta ilan kibi,
Qoy, ölürəm, özüm ölüm, sancma məni çayan kibi,
Qoy yerinə ülgücünü, eyləmə bağriqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

Məhbusu salma tazədən, bəsdi dəxi, əziyyətə,
Bais olur təbabətin, xəlqi salır müsibətə,
Yazar sənin bu elmini, verər bütün cəmaətə,
Qoy yerinə ülgücünü, eyləmə bağrıqan məni,
Salma bəlayə tazədən, ay Qafar, əlaman, məni.

**1908-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞAPQA QOYUB OXŞUYURAM VARTANA

At papağı - söylədin, atdım, Sona,
Şapqa qoyub oxşuyuram Vartana.
Molla Qasım gördü məni, danladı,
Şapqama baxdı, salamım almadı.
Acıqlanib baş-qulağın tulladı,
Söylə görüm, mən nə deyim bəs ona?
Şapqa qoyub oxşuyiram Vartana.

Gəldi orucluq, yetişib müxtəsər,
Məscidə qoymaz məni Molla Cəfər,
Çıxdı əlimdən o gözəl hədislər,
Eylədin həsrət məni sən qılmana,
Şapqa qoyub oxşuyuram Vartana.

Məscidə qoymur o mücavir məni,
Söyləyir get, çıx çölə, ey ərməni,
Cəhənnəm ol, get, a dinin düşməni,
Düşman olubsan bu dinə, imana,
Şapqa qoyub oxşamısan Vartana.

Şapqa başında, sənə düşməz namaz,
Dəysə əlin, batil olur dəsdəmaz,
Qanmamısan sən hələ, ey anlamaz,
Şapqa qoyan düşman olur Qurana,
Şapqa qoyub oxşamısan Vartana.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şapqa şəriətdə haramdır bizə,
Vay, bu xəbər getsə əgər Təbrizə,
Həp üləma lənət edərlər bizə,
Bil ki, yazarlar bu sözü Tehrana,
Şapqa qoyub oxşuyuram Vartana.
Çadranı atdın, sözümə baxmadın,
Yupqanı geydın, tymanı tulladın,
Bir gecə də evdə şişib qalmadın,
Lütcə gedirsən bazara, dükkana,
Şapqa qoyub oxşuyuram Vartana.

Arsız olubsan, gələsən lənətə,
Yaxşı tüpürdün namusa, qeyrətə,
Sən məni saldın bu qədər töhmətə,
Mən də tüpürdüm o əbayə, dona,
Şapqa qoyub oxşuyuram Vartana.
Bais olubsan mənə, kafər Sona,
Hər bir işindən xəbərim var, Sona,
Qofda geyib olmusan murdar, Sona,
Bəsdi, utan bircə, a savsar[1] Sona,
Şapqa qoyub oxşuyuram Vartana.
Mollaların mən sözünə baxmadım,
Sorğu-sualı yadıma salmadım,
Cənnəti qoydum papağa, tulladım,
Kafər olub lap gedirəm nirana,
Şapqa qoyub oxşuyuram Vartana.

**1929-cu il**

---

[1] Savsar – Vəhşi heyvan adıdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# O L M A Z

Bir namaz qılmağınan şəxs müsəlman olmaz,
Tülkünü zəncirə vursan, qalıb aslan olmaz.
Dündə min sərçə tuta bayquş əgər,
Adı bayquşdu, cəsarətdə o, tərlan olmaz.

Su satan oğlu gəlib sahibi-ehsan olmaz,
Nə qədər elmi ola, axırı insan olmaz.
Atası süd yerinə xəlqə satıb cünki suyu,
Nə səxavət, nə ədalət ola, ondan olmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# O L D U

Dolandı gərdişi-dövran, gəlib bir novbəhar oldu,
Oyan, ey qan olan könlüm, keçib leylü nəhar oldu.
Bəsindi, yuxlama, az yat, oyan bu xabi-qəflətdən,
Cəhanda çox yatanlar gör necə dərdə düçar oldu.
Qaranlıq getdi, gün çıxdı, işıqlandı tamam aləm,
Qutardı qış, soyuq getdi, bu gün bizdən kənar oldu.
Həva saflandi, birləşdi gecə-gündüz, bərabərdir,
Dəqiqə, saniyə, saət düzəldi, bir qərar oldu.
Yağışlar yağdı, yel əsdi, düşübdür güllərə şəbnəm,
Çiçəklər çıxdılar yerdən, gülüstan hər diyar oldu.
Çəmənlər səbz olub yeksər, gəliblər şurə bülbüllər,
Çıxıblar pərdədən güllər, təmaşa aşikar oldu.
Bəsirət gözlərin aç bir, təmaşa eylə dünyayə,
Təbiət gör nə iş gördü ki, hamı bir qərar oldu.
Götürdü  zülm zəncirin bizə rəhbər olan Lenin,
Ədalət bayrağın vurdu, cəhanda namdar oldu.
Kəsibdir nəslini yerdən o istibdadi-qəddarın,
Dönübdür təxti tabutə, necə gör tarmar oldu.
Açıldı məclisi-şura, cəhan əhli olub azad,
Səadət tapdı məzluman, bir özgə ruzigar oldu.
Hökumət eyləyir indı əkinçi, fə’lə hər yerdə,
Cəhanda zülm edənlər gör necə bir xar, zar oldu.
Maarif bağını saldı həqiqi firqəçi yoldaş,
Gögərtdi çox gözəl güllər, özü möhkəm həsar oldu.
Düzəltdi əgrini yeksər, olublar xar xainlər,
Görüb ovzayi zalimlər təmamən şərmsar oldu.
Qoyunlar qurdnan otlar çəməndə, şir ilən ahu,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçıbdır hiyləgər tülkü, necə gör pərdədar oldu.
Dur, ey məzlum olan Məhbus, dəxi jandarma zad yoxdur,
Yaz indi dərdini yeksər, xəfalər aşikar oldu.
Bəsindi, yuxlama, sən də dilin aç, söylə əşarın,
Sənə yoldaş deyib Lenin, yəqin bil, qəmküsar oldu.

**1917-ci il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏLƏ DÜŞMƏZ

Min yillər ilə beylə ədalət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.
Düşmüş əlinə indi ki, bu neməti-üzma,
Aç gözlərini, bircə oyan sən, dəxi yatma,
Qoy elmə uşaqları, səfil kuçədə qoyma,
Qəflət eləmə, bir də bu fürsət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

Verməzdi sənə yol o zəman çar hökumət,
Elmə, ədəbə, dərsə o bədkar hökumət,
Qoymuşdu qaranlıqda səni xar hökumət,
Yatma, çıxar əldən, belə nemət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

Dövran dolanıbdır, olub asudə cəmaət,
Şura qurulub, fə'lələr eyləllə hökumət,
Zülmü götürüb asdıla zənciri-ədalət,
İnsanlar üçün beylə səadət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

Hər yerdə açıbdır bu hökumət sənə məktəb,
Dəftər-qələmin müfdədi, kağız və mürəkkəb,
Ancaq ki, düşübdür əlinə bir belə mətləb,
Bas bağrına, hərgiz bu qənimət ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elmin qapısın Lenin aşıb eylədi asan,
Dünyadə qoyub getdi belə bir gözəl ehsan,
Gəlməz dəxi dünyayə yəqin bir belə insan,
Hiç yerdə belə sahibi-qeyrət ələ düşməz,
Bil qədrini, yoldaş, bu həkumət ələ düşməz.

Məhbus kibi sən də yatıb daldada qalma,
Biçarə, yazıqsan, get oxu, elmsiz olma,
Bu sözlərimi səhl sayıb sən, yerə salma,
Kimyadı, yəqin eylə, həqiqət, ələ düşməz,
Bil qədrini, yoldaş, bu hökumət ələ düşməz.

**10 yanvar 1922-ci il**

## M A A R İ F

Dünyadə, oğul, mənbəi-ürfandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.
Gülzari-maarifdə gedib elm ilə təhsil,
Hərçənd əziyyətdi, atam, qədrini sən bil.
Qəflət eləmə, düşməz ələ bir belə mənzil,
Axırda bilərsən necə imkandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Elm əhli gərək baği-məarifdə dolansın,
Pərvanə kibi elm oduna yansa, dayansın,
Yansın nə qədər qüdrəti var, mətləbi qansın,
Dar gündə onun dərdinə dərmandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elmin oduna biş, oğul, qorxma, dəvam et,
Yatma, gözüvi yumma, balam,sübh elə, şam et,
Təhsil elə, zəhmətdi əgər, elmi təmam et,
Bil qədrini, cismində sənin candı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Hər kimsə əgər elm tələb eyləsə, getsin
Açsın o, maarif qapısın, şövq ilə girsin,
Bir badə alıb, çeşmeyi-ürfandən içsin,
Görsün nə gözəl şərbəti-ürfandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Elmin ağacın baği-maarifdə əkərsən,
Zəhmətlə onu vəqti-cəvanlıqda biçərsən,
Əmma şəhdin sən qocalan vəqtə yeyərsən,
Ta onda bilərsən necə asandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Elmin qapısın bağladılar bizlərə yeksər,
Qoymuşdu qaranlıqda bizi müfdə yeyənlər,
Çünki yox idi onda bizə bir dənə rəhbər,
Ta bilməz idik biz onu pünhandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Açdi bu maarif qapısın bizlərə Lenin,
Elan elədi elmi bütün hər yerə Lenin,
Məktəblər açıb fə’lə və rəncbərlərə Lenin,
Dünyadə qoyub, bir böyük ehsandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hər kimsə maarif bağının dərsə gülündən,
Getməz nə qədər ömr eləsə ətri əlindən,
Sərmayə olur çün ona elmin səmərindən,
Elm əhlinə bir sərvəti-samandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

Elmim yox idi, mən necə zəhmətlərə düşdüm,
Çöllərdə gedib yay günü arpaları biçdim,
Məhbus elədim kəndimi, zindanlara düşdüm,
Bildim o zaman dərdlərə dərmandı maarif,
Alimlər üçün baği-gülüstandı maarif.

**12 may 1922-ci il**

## YENİ TÜRK ƏLİFBASI

Hardan tapılıb oldu nümayan bu əlifba,
Türkün dilini eylədi asan bu əlifba.
Qalmışdıla zəhmətdə bütün körpə uşaqlar,
Ol qədri deyib zir-zəbər, olmuşdula zinhar,
Beş yildə bir ad yazmağa qalmışdıla naçar,
Üç gündə edib onları insan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

On yil oxuyan seçməz idi «kürk»ü «kürək»dən,
Heç bir ayıranmazdı yazıq «kürk»ü «kürək»dən,
Lap təngə gələrdi «ze»yə «zal», «zad» deməkdən,
İndi ayırıbdır «ze»yi «zal»dan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstərdi ki, yazsın birisi «sirkə», «Səmənnaz»,
Söylərdilə: yazmaz niyə bəs «se» ilə qanmaz,
Bilməzdilə ta «sin»i, «se»yi heç kim ayıranmaz,
Əmma ayırıb «se»yi, «sin»i «sad»dan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.
Mən beylə yazardım ki, «baba, sirkə dönübdü»,
Söylərdi babam: «yayda necə sirkə donubdu?»
Aciz qalıdım, bəs necə yazmaq ki, «dönübdü?»
Qurtardı bizi eylə bəladən bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba.

Hər kim bu əlifbanı keçirdibdi həyatə,
Heç dərdü bəla gəlməsin aləmdə o zatə,
Çün oldu səbəb beylə gözəl bir hürufatə,
Qoymaz qala bir elmsiz insan bu əlifba,
Türkün dilini eüləyib asan bu əlifba.

Aldım əlimə mən bu əlifbanı ki, baxdım,
Üç gündə hürufatı bütün sinəmə yığdım,
Dördümcü günü başladım öz şeirimi yazdım,
Çün oldu mənə tazə bir ünvan bu əlifba,
Türkün dilini eylədi asan bu əlifba.
Məhbus adımı qoydum özüm çün bu cəhanda,
Elmim yox idi, qalmış idim darül əmanda,
Elmin dadını bilməz idim əcki zəmanda,
Verdi mənə bir sənəti-ruhan bu əlifba,
Türkün dilini eylədi asan bu əlifba.

**1929-cu il**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏKUTBLAR

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Cəlil Məmmədquluzadənin Əli Məhbusa məktubu

*Əzizim Əlişdan dayı!*

Sənubər [1] Bakıya gələndən sonra mən sənə kağız yazmışdım, amma səndən heç bir cavab yoxdur. Belə görsənir ki, sən haman kağızı almamısan. Sənubər də bizdən bixəbər yığışıb gedib Naxçıvana.Vallah, mən bilmirəm dəxi nə eləyəydim ki, Sənubər məndən razı qalaydı. O bura gələndə mən adam göndərdim, Sənubəri tapdı gətirdi və iki gündən sonra Sənubər yoldaşları ilə bizə qonaq da gəldilər. Amma o bizdən getdikləri oldu, dəxi bizə gələn olmadı. Təəccüb eləyirəm ki, nə səbəbə buradan getdilər və dərslərini yarımçıq qoydular.

Bu gün Naxçıvan və Ordubad zəlzələsini qəzetdə oxudum, nigaran oldum. Görəsən, bizə səmt adamlardan zəlzələyə giriftar olan yoxdur ki?

Əsgər ağadan nə xəbər və Əbil necədir?

Sizin uşaqlar necədir?

Kağız yaz.

***Cəlil.***

***Bakı, 11 may (1930)***

[1] Sənubər- Əli Məhbusun qızıdır.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# Əli Məhbusun Cəlil Məmmədquluzadəyə məktubu

*Bacı oğlu!*

Bu necə kağızdır yazmısan ki, Sənubər yoldaşları ilə yığışıb getdilər Naxçıvana. Nə Sənubər və nə də yoldaşları Naxçıvana gəlməyiblər. Mən başa düşmürəm, bu necə sözdür? Mənə bir cavab.

Mirzə!

Sənubər Sizdən narazı qalmaz. Fəqət Sənubər çox utancaqdır. Ömründə mənim yanıma gəlməyib və məndən bir qəpik də olsun istəməyib. Sənubər çox həyalı, utancaq uşaqdır. Səbəb odur.

***Əlişdan Babayev***
***1930***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Əli Məhbusun Məmmədquluzadələrə məktubu

*Mənim nuri-çeşmlərim Midhət paşa və Ənvər paşa və Həmidə xanım və*

*Münəvvər xanım!*

Əvvəla, qəmli salamımı sizə təqdim edirəm və saniyən, xudavəndi-aləm mənim nuri-seşmim Mirzə Cəlilin müsibətindən, sizlərə və mənə səbr əta eləsin. Bacım yadigarı Həmidə xanım, Allah Midhət paşanı və Ənvər paşanı Mirzə Cəlilin yerində bərqərar eləsin. Mənim Cəlildən əlim üzüldü. İndi ümidim qalıb sizlərə. Yanvar ayının 5-də Sənubər Mirzə Cəlilin vəfat xəbərini teleqrafla mənə verdi. Amma gəlməyə mümkünüm olmadı. Səbəb odur ki, mən də naxoşam. Siz gərək məni bağışlayasınız. Çünki özünüz mənim tərcümeyi-halımı yaxşı bilirsiz[1].

Anam-bacım Həmidə xanım! Sizlər məni yaddan çıxarmayın. Çünki sizdən savayı mənim bir kəsim yoxdur. Bütün qohum-əqrəbadan nişanə qalan bir Mirzə Cəlil idi. Onu da fələk əlimdən aldı. İndi ümidim qalıb bircə sizlərə. Hərdənbir məni yada salız.

Lənət, bu dünyanın etibarı çox bivəfadı.

*Kərbəlayi Əli Babayev*
*Naxçıvan, 8 yanvar 1932-ci il*

[1] Qeyd: Əli Məhbus yoxsulluğunu və gözlərinin yaxşı görməməsini nəzərdə tutur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Əli Məhbusun Həmidə xanım Məmmədquluzadəyə məktubu

*Bacım yadigarı Həmidə xanıma!*

Əvvəla, ərzi-salam və saniyən iyun ayının onunda Ənvər paşanın teleqramı mənə çatdı. Mən elə bildim ki, məni... toya çağırırsız. Teleqramı açıb oxuyub gördüm xeyr, matəm səbəbinən Midhət bala əlimdən gedir.

Həmidə xanım, Allah sizdən razı olsun. Qürbət vilayətdə sizə bir cüt qiymətli əmanət rapşırıb gəldim. Yaxşı əmanət saxladız. Üç bacıdan, on dörd bacoğludan, yeddi qardaşdan nişanə fəqət iki bala qalmışdı. Uzaqdan-uzağa qəlbimi ovundururdu. O da belə oldu. Keçib.

Allah Ənvəri sizə və mənə çox görməsin.

Həmidə xanım! Beş oğlum, bir qızım, yeddi qohum-qardaşım ölüb.

Məni bağışlayın, gözlərim görmür.

Ancaq belə yazıram.

*Sizin dünyada bədbəxt olan dayınız Kərbəlayi Əli Babayev*

*12 iyun (1932)*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

________*Milli Kitabxana*________

# Əsgər Nadir oğlu Qədimov

## ƏLİ MƏHBUS VƏ ƏSƏRƏLƏRİ

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

________*Milli Kitabxana*________

**Nəşriyyatın direktoru:**

**professor Nadir MƏMMƏDLİ**

| | |
|---|---|
| Kompüter dizayneri: | **Tural Əhmədov** |
| Texniki redaktor: | **Rövşanə Nizamiqızı** |
| Səhifələyici: | **Aygün Əsgərova** |
| Montajçı: | **Rasim Hacıyev** |
| Operator çapçı: | **Elşad Hacıyev** |

*Yığılmağa verilmiş 11.01.2009.*
*Çapa imzalanmış 10.02.2009.*
*Şərti çap vərəqi 7,5. Sifariş № 26.*
*Kağızformatı 60x84 1/16. Tiraj 500.*

*Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.*
***E-mail: nurlanl959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional